DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 03 (377) / MART 2023-CÜ İL



...İkinci Qarabağ müharibəsi dövründə bizə qarşı nə qədər təzyiqlər oldu, Ermənistana nə qədər yardımlar göndərildi. Hər gün silahlarla dolu bir neçə yük təyyarəsi göndərilirdi, xarici ölkələrdən muzdlular göndərilirdi. Ermənistanın müttəfiqləri bizi müxtəlif yollarla dayandırmağa çalışırdılar. Heç kim bizim qabağımızda dura bilmədi. Mən demişdim ki, öldü var, döndü yoxdur, ya Qarabağın azadlığı, ya ölüm! Heç kim bizim qabağımızda dura bilmədi, bu gün də dura bilmir, sabah da dura bilməyəcək. Əgər kimsə fikirləşir ki, bizə qarşı cızılmış çirkin planlar həyata keçə bilər, səhv edir. Bizə qarşı hər bir çirkin plana bizim güclü iradəmiz, güclü siyasətimiz, müzəffər Ordumuz cavab verəcək.

"Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan rəhbərliyi bu gün görün nə deyir. Bu gün deyir ki, bizə imkan verin 29 min kvadratkilometr ərazidə biz yaşayaq. Bunu işğal dövründə niyə demirdi? İşğal dövründə nə üçün bizim işğal edilmiş bütün torpaqları dırnaqarası "Dağlıq Qarabağ respublikası" adı altında birləşdirməyə cəhd göstərmişdilər, kitablar dərc edilirdi. Bu çirkin əməllərə, bu qanunsuz əməllərə göz yuman beynəlxalq təşkilatlar, bəzi ermənipərəst ölkələr nə üçün o vaxt Ermənistana irad tutmurdular? Biz nə qədər ikili standartlarla üzləşməliyik? Biz nə qədər riyakarlıqla üzləşməliyik?

...Bu gün biz qurub-yaradırıq. O cümlədən burada, Talış kəndində, Suqovuşan qəsəbəsində, Hadrutda, Şuşada, bütün başqa azad edilmiş torpaqlarda qurub-yaradırıq. Ermənistan bu əraziləri viran qoyub, talan edib. Otuz il ərzində daşları bir-bir söküb həm Ermənistanda, həm də ki, Ermənistanın qonşu ölkəsində bazarlarda satdırıb. Biz isə qurub-yaradırıq.

...Bu gün "Qarabağ Ermənistandır və nöqtə" deyən, bizi yeni müharibə ilə hədələyən Ermənistan bilmir hansı qanadın altında özünə yeni himayədar tapsın. Bütün dünyaya öz satqınlığını, nankorluğunu bir daha göstərir. İndi özü üçün yeni ağa axtarışındadır. Bilmir kimin ayağının altına yıxılsın. Bunun heç bir xeyri olmayacaq. Ermənistanın 29 min kvadratkilometr ərazidə rahat yaşaması üçün bir şərt var – bizim şərtlərimizi qəbul etməlidir, rəsmən Qarabağı Azərbaycan ərazisi kimi tanımalıdır, bizimlə sülh müqaviləsi imzalamalıdır, bizim şərtlərə əsasən, delimitasiya işlərini aparmalıdır. Ancaq o təqdirdə onlar 29 min kvadratkilometr ərazidə, - hansı ki, indi onlar ancaq bunu istəyirlər, - rahat yaşaya bilərlər. Əgər Ermənistan bizim ərazi bütövlüyümüzü tanımasa, biz də onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nəticəsi nə olacaq, bunu Ermənistan və onun arxasında duran riyakar ölkələr yaxşı bilməlidirlər. Yaxşı bilməlidirlər ki, bizə qarşı heç bir çirkin plan həyata keçməyəcək. Bizim həm gücümüz var, həm dostlarımız var, dünyada güclü mövqelərimiz var və güclü iradəmiz var. Müharibə dövründə və müharibədən sonrakı dövrdə biz bunu nümayiş etdirmişik.

**Prezident İlham Əliyev**
Novruz bayramı münasibətilə Azərbaycan xalqına müraciətindən
Tərtər rayonunun Talış kəndi, 18 mart 2023-cü il

## DÖVLƏT KOMİTƏSİ DİNİ İCMALAR ARASINDA YAZI MÜSABİQƏSİ ELAN EDİR

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Heydər Əliyev siyasəti: Azərbaycanın dövlət-din modeli" mövzusunda dini icmaların üzvləri arasında yazı müsabiqəsi elan edir.

Müsabiqəyə ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, tolerantlıq mühitinin dövlət-din konsepsiyasına uyğun möhkəmləndirilməsi, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılması istiqamətində Ümummilli Lider Heydər Əliyev tərəfindən həyata keçirilən strategiyanın əhəmiyyətindən bəhs edən məqalələr göndərilə bilər. Həmçinin Azərbaycan xalqının spesifik keyfiyyəti kimi tolerantlığa, onun möhkəmləndirilməsində, beynəlxalq miqyasda təbliğ edilməsində və dünyada nümunə kimi qəbul olunmasında Heydər Əliyevin xidmətlərinə və bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilən siyasətə həsr olunmuş məqalələr qəbul olunur.

**1.Müsabiqənin şərtləri**

- müsabiqəyə hər müəllif yalnız bir yazı təqdim edə bilər;
- yazı mövzuya uyğun olmalıdır;
- yazıya uyğun olaraq yaradıcı başlıq müəyyənləşdirilməlidir;
- yazının həcmi 8 000 (səkkiz min) işarədən artıq olmamalıdır (1,5 aralıq məsafə ilə təxminən 3-4 A4 formatlı vərəq həcmində);
- müsabiqə üçün verilmiş yazı qəzetdə çap edilərsə, qəzetin həmin sayının 1 nüsxəsi Dövlət Komitəsinə təqdim olunmalıdır;
- yazı elektron media resursunda yayımlanarsa, link yazıya əlavə edilərək, redaksiya@scwra.gov.az e-mail ünvanına göndərilməlidir;
- yazı təqdim edən şəxsin əlaqə vasitələri - ev və ya iş telefonu, mobil telefonu, e-mail ünvanı yazıya əlavə edilməlidir.

**2. Mükafat**

I (1 nəfər) yer – 500 AZN
II (1 nəfər) yer – 400 AZN
III yer (1 nəfər) – 300 AZN
Hər biri 100 manat olmaqla üç həvəsləndirici mükafat.

**3. Müsabiqənin müddəti: Məqalələr 2023-cü il 10 aprelədək təqdim edilməlidir.**

**Ünvan:** Bakı şəhəri, Əhməd Cavad küç., 16
**Əlaqə telefonları:** (012) 505 78 16 / (012) 505 78 19
**E-mail:** redaksiya@scwra.gov.az

# MİLLİ MƏCLİSDƏ DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİNİN HAZIRKI VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNUB

Martın 30-da Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin iclası keçirilib.

Milli Məclis sədrinin müavini, komitənin sədri Fəzail İbrahimli iclasın "Azərbaycanda dövlət-din münasibətləri: real durum və perspektivlər" mövzusuna həsr olunduğunu bildirib.

Fəzail İbrahimli sovet dövründə dinə qarşı böyük təzyiqlər olduğunu, lakin müstəqillik əldə ediləndən sonra bütün çətinliklərin aradan qaldırıldığını diqqətə çatdırıb. Onun sözlərinə görə, Azərbaycanda digər sahələrdə olduğu kimi, dini sahədə də xeyli dəyişikliklər baş verib, əhəmiyyətli addımlar atılıb, böyük uğurlar əldə edilib. Müstəqillik illərində ölkəmizdə dövlət-din münasibətlərini tənzimləyən qanunlar qəbul olunub, Konstitusiyamızda dini etiqad azadlığı ilə bağlı məsələlər müvafiq maddələrdə öz əksini tapıb. Eyni zamanda, cəmiyyətdə fərdlərlə, dini icmalarla dövlət arasındakı münasibətləri tənzimləyən "Dini etiqad azadlığı" haqqında qanun qəbul edilib. Sənəddə ölkəmizdə bütün dini icmaların bərabər hüquqlu fəaliyyət göstərməsi ilə bağlı məsələlər təsbit olunur.

Komitə sədri bildirib ki, Azərbaycan tolerantlıq baxımından dünyanın qabaqcıl ölkələri sırasındadır. Ölkəmizdə dini icmaların azad fəaliyyətinə lazımi şərait yaradılıb. Müxtəlif xalqların və dinlərin nümayəndələri mehriban dostluq şəraitində yaşayır.

Azərbaycanda dini plüralizm mühitinin mövcud olduğunu deyən Fəzail İbrahimli ölkəmizin İslam həmrəyliyinə öz layiqli töhfəsini verdiyini, milli-mənəvi dəyərlərə sadiq olduğunu söyləyib. Vurğulayıb ki, artıq Azərbaycan iqtisadi cəhətdən qüdrətli bir dövlətə çevrilib və dünyada, həmçinin regionda öz mövqeyini möhkəmləndirərək etibarlı tərəfdaşa çevrilib.

Sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanın çoxmillətli və çoxkonfessiyalı ölkə olduğunu söyləyib və bunun dövlət-din münasibətlərinin formalaşmasındakı rolundan danışıb, dövlət-din münasibətlərinin uğurla tənzimlənməsi sahəsində ölkəmizdə təqdirəlayiq işlərin görüldüyünü bildirib. Komitə sədri qeyd edib ki, Azərbaycan dövləti bütün etnik qrupların, dini konfessiya nümayəndələrinin öz dillərini, dinlərini, mədəniyyət və adət-ənənələrini qoruyub saxlaması üçün hərtərəfli qayğı göstərir.

Komitə sədri müstəqillik əldə edildikdən sonra ölkədə məscidlərin, kilsələrin, sinaqoqların, digər dini məbədlərin inşası və bərpası istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirildiyini deyib. O, həmçinin dini kadrların yetişdirilməsi məsələsinə toxunaraq, vətəndaşlarımızın dini təhsil alması üçün ölkəmizdə bu sahəni tədris edən təhsil ocaqlarının fəaliyyət göstərməsinin vacibliyini qeyd edib.



Mübariz Qurbanlı rəhbərlik etdiyi komitənin Azərbaycanda tarixi-mənəvi irsin və ənənəvi dəyərlərin qorunub saxlanılması, tolerantlıq, multikulturalizm ideyalarının təbliği istiqamətində fəaliyyəti barədə danışıb. O bu qurumun dövlət-din münasibətləri, habelə dini icmaların fəaliyyətinin tənzimlənməsi istiqamətində məqsədəmüvafiq işlər gördüyünü söyləyib və komitənin digər qurumlarla qarşılıqlı əməkdaşlıq etdiyini deyib.





Komitə sədri Azərbaycanda İslam mədəniyyətinin, habelə dinlərarası münasibətlərdə tolerantlıq və multikultural dəyərlərin qorunub saxlanılmasının vacibliyini qeyd edərək, bu sahədə maarifləndirmə işinin əhəmiyyətindən, o cümlədən dini ictimaiyyətin, ziyalıların, medianın rolundan danışıb.

Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib ki, müstəqillik əldə etdikdən sonra ölkə vətəndaşlarının dini etiqad və vicdan azadlıqları təmin olundu, bu sahədə qoyulan qadağalar aradan qaldırıldı. Xalqımız öz milli və dini bayramlarını sərbəst şəkildə qeyd etmək hüququ əldə etdi.

Deputat qeyd edib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin diqqət və qayğısı sayəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi qurulduqdan sonra ölkəmizdə dövlət-din münasibətləri sahəsində yeni mərhələ başladı. Dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarının tələblərinə riayət olunmasının təmin edilməsi, dini icmaların qeydiyyata alınması, qeydiyyatının ləğvi, dini qurumların fəaliyyətinin tənzimlənməsi səlahiyyəti dövlət komitəsinə həvalə olundu.

Xalqımızın tarixən digər din və mədəniyyətlərə qarşı tolerant münasibətilə seçildiyini vurğulayan C.Məmmədov ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin öz etnik xüsusiyyətlərini, adət-ənənələrini qoruyub saxlamaqla, həmişə qarşılıqlı anlaşma şəraitində yaşadıqlarını, ictimai-siyasi və iqtisadi həyatda fəal iştirak etdiklərini söyləyib. Qeyd edib ki, müasir dövrdə də ölkəmizdə müxtəlif dinlərin tarixinin, mədəni abidələrinin, mənəvi irsinin dövlət tərəfindən qorunur, bu gün Azərbaycanın öz tolerantlığı, dini plüralizmi qoruyub saxlaması ilə yanaşı, İslam həmrəyliyinə də layiqli töhfələr verir. Bildirib ki, ölkəmizdə dini dəyərlərə, ibadət yerlərinə və din xadimlərinə xüsusi qayğı ilə yanaşılır. Dövlətlə din arasında qarşılıqlı anlaşma və əməkdaşlıq daha da güclənir.

İclasda Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumunun katibi-arximandrit Aleksi Nikonorov, Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası yepiskopunun birinci müavini Yozef Marek, Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasının sədri Robert Mobili, Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icmasının sədri Rasim Xəlilov, "Vineyard Azərbaycan" xristian dini icmasının sədri Emil Pənahov, Azərbaycan Bəhailəri Dini Mərkəzinin katibi Ramazan Əsgərli, Bakı Krişna Şüuru dini icmasının sədri Mahir Əhmədov, Bakı şəhəri "Yevangelist Xristian Baptistlərinin kilsəsi" dini icmasının sədri İlya Zençenko, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev, üzvləri Azər Badamov, Cavanşir Paşazadə çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, dünyəvi dövlət olan Azərbaycanda, həmçinin mükəmməl dövlət-din münasibətləri də formalaşıb. Dövlət və dini icmalar arasında münasibətlər yüksək səviyyədə qurulub, müxtəlif dini konfessiyalar arasında tolerantlıq münasibətləri mövcuddur. Çıxışlarda ölkəmizdə dövlətin dini icmalara göstərdiyi qayğı yüksək qiymətləndirilib. Qeyd olunub ki, tarixi məbədlərin təmir və bərpası bu gün də davam etdirilir, dini ayinlərin icrası üçün lazımi şərait yaradılır. Bildirilib ki, ölkə rəhbərliyinin din sahəsində yeritdiyi uğurlu siyasət nəticəsində dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir, dini etiqad azadlığı təmin edilir, ölkədəki tolerantlıq mühiti qorunub saxlanılır.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Aparat rəhbəri Amil Cavadov, Komitənin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə, Dini təhsil şöbəsinin müdiri Elnarə Kərimova iştirak ediblər.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ "MƏŞƏDİ DADAŞ" MƏSCİDİ DİNİ İCMASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞÜB

Mart ayının 13-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Bakı şəhəri Nəsimi rayonu "Məşədi Dadaş" məscidi dini icmasının üzvləri ilə görüşüb.

DQİDK sədri çıxış edərək Azərbaycan dövlətinin dini, milli-mənəvi dəyərlərimizin inkişafı, dini ibadət yerlərinin tikintisi və bərpası istiqamətində görülən işlərdən, dini icmalara göstərilən qayğıdan danışıb. Bildirib ki, ölkəmizdə milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasına xüsusi önəm verilir, dini etiqad azadlığının təmin olunması, dindarların dini ayin və mərasimlərini sərbəst yerinə yetirmələri üçün hər cür şərait yaradılır, onlara lazımi qayğı göstərilir.

Dövlət Komitəsinin sədri dini icma üzvləri ilə icmanın gələcək fəaliyyəti, "Məşədi Dadaş" məscidinə yeni imam təyinatı, eyni zamanda qarşıda duran məsələlər barədə ətraflı müzakirələr aparıb.

# MÜBARİZ QURBANLI:
# HEYDƏR ƏLİYEVİN SİYASƏTİNİ BÜTÜN ÖLKƏ VƏTƏNDAŞLARI DƏSTƏKLƏDİ




Martın 3-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Heydər Əliyev və müasir Azərbaycanın siyasi sistemi: plüralizm və bərabər imkanlar" mövzusunda konfrans keçirilib.

Konfransda YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı "Müasir Azərbaycanın siyasi sisteminin əsas prinsipləri" mövzusunda çıxış edərək bildirib ki, cəmiyyətin və dövlətin inkişafı siyasi sistemlə, onun xarakteri, prinsipləri və funksiyaları ilə sıx bağlıdır. M.Qurbanlı vurğulayıb ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə demokratik siyasi sistemin bərqərar olması üçün tarixi-siyasi şərait yarandı: "1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Azərbaycanda demokratik siyasi sistemin formalaşması və inkişafı istiqamətində məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsinə başlandı. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında ölkəmizin siyasi sisteminin əsas prinsipləri öz əksini tapdı. Bu sahədə atılan addımlar idarəetmə institutlarının inkişafı üçün əlverişli şərait yaratdı və idarəetmə münasibətlərində şəffaflığı təmin etdi. İnsan hüquq və azadlıqlarının təmin olunmasına dair ölkə qanunvericiliyi təkmilləşdirildi".

Mübariz Qurbanlı qeyd edib ki, demokratik siyasi sistemin bərqərar olması nəticəsində ölkəmizdə siyasi mədəniyyət inkişaf etdi: "Siyasi sistemin vətəndaşlara geniş hüquq və azadlıqlar verməsi siyasi mədəniyyətin mütərəqqi xarakter daşımasında mühüm rol oynadı. Ölkəmizin demokratik siyasi sistemi insan hüquq və azadlıqlarının təmin olunması ilə bağlı səmərəli hüquqi mexanizmləri özündə ehtiva etdi. Ölkə vətəndaşları çoxpartiyalı sistemə əsaslanan seçkilər yolu və vətəndaş iştirakçılığını təmin edən digər hüquqi vasitələrlə qərarların qəbul olunması prosesində fəal iştirak etməyə başladılar. Siyasi sistemin özündə ehtiva etdiyi demokratik dəyərlər azərbaycançılıq məfkurəsinin və vətəndaş həmrəyliyinin möhkəmlənməsində, dünya azərbaycanlılarının vahid amal uğrunda birləşməsində mühüm rol oynadı. Heydər Əliyevin apardığı siyasət etnik mənsubiyyəti və dini baxışlarından asılı olmayaraq ölkə vətəndaşları tərəfindən dəstəkləndi və onlar müstəqil dövlət quruculuğu prosesində yaxından iştirak etdilər. Ölkəmizin siyasi sisteminin demokratik xarakter daşıması xarici siyasətdə də öz təsirini göstərdi. Azərbaycanın xarici siyasəti beynəlxalq hüququ normalar, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, daxili işlərinə müdaxilə edilməməsi kimi prinsiplər əsasında quruldu".

YAP İdarə Heyətinin üzvü vurğulayıb ki, Azərbaycanın siyasi sisteminin əsas prinsipləri Yeni Azərbaycan Partiyasının Proqramında öz əksini tapır.

"Müasir dövrün çağırışlarına uyğun olaraq Azərbaycanın siyasi sisteminin daha da təkmilləşdirilməsi istiqamətində Prezident İlham Əliyev tərəfindən məqsədyönlü siyasət aparılır. Ölkəmizdə yeni siyasi konfiqurasiyanın yaranması və partiyalararası dialoqun möhkəmləndirilməsi sahəsində mühüm addımlar atılır. Ölkəmizin tərəqqisi naminə aparılan dövlət siyasəti ətrafında Azərbaycan vətəndaşlarının sıx birləşməsi demokratik siyasi sistemin milli həmrəyliklə bağlı yaratdığı əlverişli şəraitdən irəli gəlir. Xüsusilə, 44 günlük Vətən müharibəsində ölkə vətəndaşlarının Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti fəal şəkildə dəstəkləməsi siyasi və milli həmrəyliyin bariz nümunəsidir", - deyə Dövlət Komitəsinin sədri qeyd edib.

# DQİDK SƏDRİ İLK DƏFƏ TƏYİNAT ALMIŞ QADIN DİNİ AYİNLƏRİN İCRAÇILARI İLƏ GÖRÜŞÜB



Martın 31-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən 13-15 fevral 2023-cü il tarixində İslam dininə aid ibadət yerlərində qadın dini ayinlərin icraçısı vəzifəsinin tutulması üçün keçirilmiş müsahibədə iştirak edən və uğur qazanaraq təyinat almış ilk qadın dini ayinlərin icraçıları ilə görüş keçirilib.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı yeni təyinat alan qadın dini ayinlərin icraçılarını təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Qeyd edib ki, qadın dini ayinlərin icraçısı – imamın tapşırığına əsasən İslam dininə aid ibadət yerlərində və ziyarətgahlarda dini ayinlərin, eyni zamanda dini mərasimlərin icrasını həyata keçirən şəxsdir.

M.Qurbanlı diqqətə çatdırıb ki, belə bir təyinatın həyata keçirilməsi Azərbaycanda ilk təcrübə hesab oluna bilər. Məscidlərdə orta və ali dini təhsili olan qadınların dini ayin icraçıları kimi fəaliyyət göstərmələri İslam dininin dəyərlərini olduğu kimi təbliğ etmək, dini ayinləri doğru icra etmək, insanları xurafat və cahillikdən uzaqlaşdırmaq baxımından çox böyük əhəmiyyətə malikdir.

Görüş zamanı mövcud dini durum, dövlətin bu sahəyə göstərdiyi yüksək diqqət, dini abidələrə və din xadimlərinə qayğısı haqqında da danışan Komitə sədri ölkəmizdə mövcud olan dini vəhdətin, tolerantlığın, multikulturalizmin, qarşılıqlı anlayış mühitinin qorunub saxlanılmasının vacibliyini xüsusi olaraq vurğulayıb.

Daha sonra qadın dini ayinlərin icraçılarının fikirləri və təklifləri dinlənilib, çıxışçılar dövlət tərəfindən dinə və din xadimlərinə göstərilən diqqəti yüksək dəyərləndiriblər.

Qeyd edək ki, görüşdə iştirak edən qadın dini ayin icraçıları Dövlət Komitəsi sədrinin müvafiq əmri ilə Bakı şəhəri Suraxanı rayonu, Yeni Suraxanı qəsəbəsi "Heydər", "Xanım Fatimeyi-Zəhra", Yasamal rayonu "İlahiyyat", Sumqayıt şəhəri "Cümə", Ceyranbatan yaşayış massivi "Ceyhun xanım və Hacı Əhməd", Neftçala şəhəri "Sahibəz-Zaman", Gəncə şəhəri, Bala Bağbanlar məhəlləsi "Fatimeyi-Zəhra", Saatlı rayonu "Sımadakənd", Şəki şəhəri "Mərkəzi Cümə", İsmayıllı rayonu "Cümə" məscidlərinə təyin olunublar.

# MÜBARİZ QURBANLI AĞCABƏDİDƏ VƏTƏNDAŞLARI QƏBUL EDİB



Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı martın 29-da Ağcabədi, Ağdam, Tərtər, Füzuli və Zərdab rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Ağcabədi şəhərindəki abidəsi ziyarət edilib. Abidə önünə gül dəstələri qoyulub, Ulu Öndərin xatirəsi ehtiramla yad olunub.

Qəbula gələn vətəndaşlar dini maarifləndirmə işinin genişləndirilməsi, İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, dini qurumların dövlət qeydiyyatına alınması, habelə digər məsələlərlə bağlı müraciətlər ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı martın 9-da ABŞ Dövlət Departamentinin Beynəlxalq Din Azadlığı İdarəsinin beynəlxalq dini azadlıqlar və xüsusi tapşırıqlar üzrə səfirinin müavini Karson Relitz Roker, həmçinin adıçəkilən idarənin Avropa və Mərkəzi Asiya üzrə müşaviri Yohanna Vulfsberq ilə görüşüb.

Dövlət Komitəsinin sədri Azərbaycanın dövlət-din münasibətləri modeli, dini durum haqqında ətraflı məlumat verib, statistik rəqəmləri diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan müxtəlif dini konfessiyaların vəhdət, harmoniya şəklində yaşadığı unikal bölgələrdən biridir. Ölkədə dövlət-din münasibətləri Konstitusiya və "Dini etiqad azadlığı haqqında" Qanunla tənzimlənir. Azərbaycan dünyəvi dövlət olmasına baxmayaraq, dini konfessiyalar hərtərəfli diqqət və qayğı ilə əhatə olunur. Hər il dövlət büdcəsindən ölkədə mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədilə həm İslam, həm də qeyri-islam dini icmalarına maliyyə yardımı ayrılır.

Dövlət Komitəsi tərəfindən həyata keçirilən maarifləndirmə tədbirlərinə diqqət çəkən DQİDK sədri qurumun tabeliyində yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyət istiqamətləri barədə də danışıb.

Görüş zamanı Azərbaycan həqiqətlərinə toxunan Mübariz Qurbanlı işğal dövründə Ermənistanın torpaqlarımızda etnik təmizləmə və soyqırımı həyata keçirməsi, Azərbaycan toponimlərini erməniləşdirməsi, yüzlərlə tarixi-mədəni abidələr ilə yanaşı, mövcud olan 60-dan çox məscidi, 200-ə yaxın ziyarətgahı dağıtması və məscidlərdə heyvan saxlamaqla dini dəyərləri təhqir etməsi, eləcə də Qafqaz Albaniyası mədəni irsinə və pravoslav kilsəsinə aid olan xristian məbədlərində saxtalaşdırma işləri görərək qriqoryanlaşdırması və ya dağıtması barədə faktları vurğulayıb. Dini abidələrə qarşı Azərbaycan və Ermənistanın sərgilədiyi fərqli münasibəti xüsusi qeyd edərək Bakının mərkəzində yerləşən erməni kilsəsinin dövlət tərəfindən qorunan abidələr siyahısına daxil edildiyini bildirib.

Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən qonaq Azərbaycanda dini qurumların qeydiyyatı, dini icmaların fəaliyyəti, habelə digər müvafiq məsələlərlə bağlı fikirlərini bölüşüb.

ABŞ-nin Azərbaycandakı səfirinin siyasi məsələlər üzrə müşaviri Bret Dvorak və Dövlət Komitəsinin rəsmilərinin iştirak etdiyi görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

Görüşün sonunda qonaqlara DQİDK-nın ingilis dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmindən bəhs edən kitablar təqdim edilib.

***

Martın 16-da Dövlət Komitəsinin sədri Qafqaz Müsəlmanları İdarəsinin Dağıstan və Şimali Qafqazdakı nümayəndəliyinin rəhbəri Şahubiddin Kərimov və Rusiya Federasiyası Dağıstan Respublikasının Dərbənd şəhərində yerləşən Şeyx Abdulla Əfəndi adına İslam Universitetinin rektoru Arif Səidov ilə görüşüb.

Qonaqları salamlayan M.Qurbanlı Azərbaycanın dövlət-din münasibətləri, dinlərarası harmoniya, eyni zamanda məscidlərdə vəhdət namazlarının ənənəvi hal alması barədə danışıb.

Görüş zamanı dini təhsilin vacibliyinə diqqət çəkən Mübariz Qurbanlı ölkəmizdə yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanması məqsədilə müasir təhsil standartları və dünya təcrübəsi əsasında təsis edilən, yeni ali dini təhsil müəssisəsi olan Azərbaycan İlahiyyat İnstitutunun (AİI) fəaliyyətinə toxunub. Bildirib ki, AİI-nin qarşısına qoyduğu məqsədlərdən biri də ali təhsil müəssisəsinin dünya miqyasında tanınmasına, habelə bölgənin əsas dini təhsil mərkəzinə çevrilməsinə nail olmaqdır. İnstitut ilahiyyat sahəsində tanınmış dünya universitetləri ilə geniş əməkdaşlıq əlaqələrinə malikdir. Eyni zamanda Dövlət Komitəsində ölkədə dini təhsillə bağlı vəziyyətin öyrənilməsi, eləcə də dini təhsil müəssisələri ilə əməkdaşlığın qurulması üçün Dini təhsil şöbəsi yaradılıb.



Bu istiqamətdə həyata keçirilən birgə layihələrin, təcrübə mübadilələrinin xüsusi önəm daşıdığını vurğulayan DQİDK sədri Dərbənd Abdulla Əfəndi adına İslam Universiteti və Azərbaycan İlahiyyat İnstitutu arasında imzalanan memorandumun bu baxımdan vacib əhəmiyyət kəsb etdiyini qeyd edib.

Həmçinin söhbət zamanı Dağıstanın Rusiya-Azərbaycan münasibətlərinin inkişafında rolu vurğulanaraq dini sahədə DQİDK-nın tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun xətti ilə gələcək əməkdaşlıq məsələləri müzakirə olunub və layihələrdə birgə fəaliyyətin perspektivləri nəzərdən keçirilib.

***

Daha bir görüş martın 17-də DQİDK sədri Mübariz Qurbanlı ilə Misir baş müftisinin baş müşaviri, Ümumdünya Fətva Evlərinin baş katibi İbrahim Nəcim arasında baş tutub.



Görüş zamanı iki ölkə arasındakı dostluq münasibətlərinə toxunan Dövlət Komitəsinin sədri Azərbaycan ilə Misir arasında dini sahədə, eləcə də Azərbaycan İlahiyyat İnstitutu ilə Misirin ilahiyyat üzrə fəaliyyət göstərən təhsil ocaqlarının birgə əməkdaşlığının daha da genişləndirilməsinin sözügedən istiqamətə töhfə verəcəyinə əminliyini ifadə edib. Qonağa ölkənin dövlət-din münasibətləri, nümunəvi tolerantlıq mühiti, habelə Dövlət Komitəsinin fəaliyyət istiqamətləri barədə məlumat verən M.Qurbanlı bildirib ki, dövlət müstəqilliyinin bərpasından sonra milli dövlətimizin qurucusu Heydər Əliyevin müəllifi olduğu Konstitusiyamızda bu modelin tərkib hissəsi kimi Azərbaycanın demokratik, hüquqi, dünyəvi və unitar respublika olması öz əksini tapıb. Dünyəvi dövlət olmasına baxmayaraq, ölkəmizdə dinə dövlət qayğısı yüksək səviyyədədir. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun davamçısı Prezident İlham Əliyev milli-mənəvi dəyərlərin qorunmasına, dini ibadətgahların inşasına və bərpasına xüsusi önəm verir.

Bakının ev sahibliyi etdiyi "İslamofobiya irqçiliyin və ayrı-seçkiliyin spesifik forması kimi: Yeni qlobal və transmilli çağırışlar" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün ölkəmizə səfər etdiyini bildirən Misir baş müftisinin baş müşaviri dini sahədə aktual məsələlərlə bağlı tədbirlərin keçirilməsinin böyük əhəmiyyətə malik olduğunu qeyd edərək bunun ənənə halını almasını arzuladığını deyib. Qonaq, həmçinin Azərbaycanın sivilizasiyalararası dialoqun, multikulturalizmin və digər humanitar sahələrdə qlobal məsələlərin müzakirə olunduğu mərkəzə çevrildiyini xüsusilə vurğulayıb. Ölkəmizin dinlərarası dialoq, İslam həmrəyliyi, eyni zamanda islamofobiya ilə mübarizəyə verdiyi önəmi təqdirəlayiq hal kimi qiymətləndirib, Misirdə ənənəvi keçirilən dini sahəyə həsr olunan beynəlxalq konfransda Azərbaycanın da təmsil olunmasını təklif edib.

Qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirə edildiyi görüşün sonunda qonağa DQİDK-nın xarici dillərdə nəşr etdirdiyi "Azərbaycanın seçilmiş İslam abidələri" adlı kitab təqdim edilib.

***

Martın 28-də Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı beynəlxalq "I24 News TV"-nin jurnalisti,



"Bastille" və "Hemicycle" jurnallarının müəllifi Mikel Darmonla görüşüb.

Qonağa ölkəmizdə mövcud olan dini durum, nümunəvi tolerantlıq modeli və DQİDK-nın fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verən Komitə sədri bildirib ki, Azərbaycan demokratik, hüquqi və dünyəvi dövlət, eyni zamanda bir çox xalqın və dini konfessiyanın dinc, yanaşı yaşadığı ölkədir. Azərbaycanda dini konfessiya nümayəndələrinin hər biri öz maddi və mənəvi mədəniyyətini, dilini, tarixi yaddaşını qoruyub-saxlamaq imkanına malikdir. Dövlət tərəfindən bütün dini qurumlara, o cümlədən qeyri-islam icmalarına mütəmadi maliyyə yardımı ayrılır. Mübariz Qurbanlı respublikada din və məzhəb ayrı-seçkiliyinə yol verilmədən insanların dini ibadətlərini sərbəst həyata keçirdiklərini, ölkədə məscid, sinaqoq, kilsə və digər ibadət məkanlarının dövlət tərəfindən təmir və bərpa edilərək vətəndaşların ixtiyarına verildiyini xüsusilə vurğulayıb. Diqqətə çatdırıb ki, Azərbaycanda 2253 məscid mövcuddur, 16 kilsə və 7 sinaqoq fəaliyyət göstərir, eləcə də ölkə üzrə 37 qeyri-islam dini icması rəsmi qeydiyyatdan keçib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Mikel Darmon təmsil etdiyi kütləvi informasiya vasitələri haqqında danışıb. Qonaq, eyni zamanda ölkəmizdəki unikal birgəyaşayış modelinin üstünlüyü barədə fikirlərini bildirərək Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, o cümlədən tolerantlıq modelinin təbliğində maraqlı olduqlarını qeyd edib.

"Me&Me" şirkətinin rəhbəri Regis Lefebrenin də iştirak etdiyi görüşün sonunda qonaqlara DQİDK-nın nəşr etdirdiyi, Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq ənənələrindən, eləcə də işğal olunmuş ərazilərimizdə erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən bəhs edən kitablar təqdim edilib.

# "HEYDƏR ƏLİYEV İLİ" ÇƏRÇİVƏSİNDƏ "DİNİ TƏHSİL: MÖVCUD VƏZİYYƏT VƏ PERSPEKTİVLƏR" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB



"Heydər Əliyev İli" çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və "Azərbaycan" qəzetinin birgə təşkilatçılığı ilə "Dini təhsil: mövcud vəziyyət və perspektivlər" mövzusunda konfrans təşkil edilib.

Konfransın moderatoru Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru **Aqil Şirinov** qeyd edib ki, din təhsili istər dinin əsas prinsiplərinin doğru şəkildə cəmiyyətə çatdırılması, istərsə də dövlət təhlükəsizliyi baxımından böyük əhəmiyyət kəsb edir. Belə ki, din cəmiyyətin mənəvi inkişafında, ictimai birliyin, sosial inteqrasiyanın təmin edilməsində əvəzsiz rola malikdir: "Bununla yanaşı, dinin səhv interpretasiyasının milli-mənəvi birliyə deyil, cəmiyyətin bölünməsinə səbəb olduğu da sirr deyil. Bu baxımdan dini biliklərin səhih mənbələrə əsaslanaraq, həmçinin dövrümüzün reallıqlarını nəzərə alaraq cəmiyyətə çatdırılması labüddür. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, "Biz azərbaycanlılar İslam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq İslam dəyərlərinin xüsusiyyətidir".

Natiq bildirib ki, "Dünyəvilik prinsipinə xələl gətirmədən din təhsilini necə vermək lazımdır?" sualı ətrafında bir çox mülahizə qeyd edilir və müzakirələr aparılır. Qısaca qeyd edə bilərik ki, dünyada dini təhsilin müxtəlif formaları mövcuddur. Bunlardan biri konfessional tədrisdir, yəni tədrisdə bir din və ya məzhəb əsas götürülür və dərslər həmin dindən, yaxud məzhəbdən çıxış edərək keçirilir. Bu tədris metodu daha çox müəyyən bir dini və ya məzhəbi öz rəsmi ideologiyası kimi qəbul edən dövlətlərdə tətbiq olunur. Digər təcrübələr isə "din haqqında" və "dindən öyrənmə" modelidir. Dünyəvi dövlətlərdə din tədrisi daha çox bu son iki metod üzərində qurulub. "Din haqqında öyrənmə" modeli müəyyən bir dini dünyagörüşün digərlərindən üstünlüyünü önə çəkmədən cəmiyyətdə mövcud olan dinlərin əsas mahiyyəti və tarixi haqqında deskriptiv (təsviri) bilikləri əhatə edir. "Dindən öyrənmə" modeli isə tədris prosesində dinlərin insanlığa təlqin etdiyi universal mənəvi dəyərlərin mənimsənilməsinə xidmət edir. Bu iki model dünyəvilik prinsipinə xələl gətirmədən cəmiyyətin köklü institutlarından biri olan din haqqında şagird və tələbələrə biliyin verilməsinə xidmət göstərir. Son dövrlərdə ictimai müzakirələrə səbəb olan "xaricdə din təhsili" mövzusuna sözügedən din təhsili modelləri çərçivəsində yanaşmaq daha doğru olardı. İslam dünyasındakı din təhsilinə nəzər saldıqda görürük ki, əksər müsəlman ölkələrində din təhsili konfessional modelə əsaslanır və normativ xarakter daşıyır. Bu təhsildə konkret bir məzhəbin və ya dini qrupun baxışı əsas götürülür və hətta çox vaxt digər məzhəblərin fikirləri "doğru yoldan uzaqlaşma" kimi qələmə verilir. Həmçinin bir çox müsəlman ölkəsindəki din təhsilində klassik dini elmlərə baxış bir-birindən köklü şəkildə fərqlənir. Hətta xalqları eyni məzhəbə mənsub olan ölkələrdəki dini təhsilə diqqət yetirdikdə bu köklü fərqliliyin şahidi oluruq. Bunun əsas mənbəyi, ilk növbədə, həmin ölkələrin dinə baxışındakı ideoloji fərqliliklərdir. Dünyəviliyi dövlət-din münasibətlərində əsas model kimi qəbul edən ölkələrdəki din təhsili ilə müəyyən bir dini dünyagörüşü siyasi sisteminin əsası kimi qəbul edən ölkələrdəki din təhsili bir-birindən fərqlidir. Dinin və ya məzhəbin mənbələri eyni olsa da, mənbələrə baxış və onların interpretasiyası bir-birindən köklü şəkildə fərqlənir. Məhz buna görə də dini təhsilə təkcə elmi prizmadan baxmaq kifayət deyil, burada ideoloji amillər də mütləq nəzərə alınmalıdır. Təsəvvür edək ki, dünyəvilik prinsipini qəbul etmiş bir ölkənin vətəndaşı öz baza təhsilini bu prinsipi qəbul etməyən və hətta "qeyri-islami" adlandıran başqa bir dövlətin dini təhsil ocağında alır. Şübhəsiz, o, təhsil almaq üçün getdiyi ölkədə dünyəviliyin nəzərə alınmadığı bir tədris prosesindən keçəcək. Yenə təsəvvür edək ki, çoxməzhəbli bir ölkənin vətəndaşı tək məzhəbin "haqq", digərlərinin isə ən yaxşı halda "bidətçi" kimi təqdim edildiyi bir dini tədris prosesindən keçir. Bütün bunların ictimai vəhdətə vuracağı zərbəni, yəqin ki, təsəvvür etmək çətin deyildir".



A.Şirinov deyib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 9 fevral tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradılıb. Sərəncamda da qeyd olunduğu kimi, institutun yaradılmasının əsas məqsədi Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub-saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etməkdir. Bu sərəncamla ölkəmizdəki ali din təhsili yeni mərhələyə qədəm qoyub, Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsi də institutun tərkibinə daxil edilib və beləliklə, güclü bazaya malik olan ali təhsil müəssisəsinin əsası qoyulub: "Ödənişsiz təhsil verən AİI yüksək elmi təfəkkürə malik olan kadrların rəhbərliyində milli-mədəni irsi anlayıb dəyərləndirə bilən, mövcud problemlərə dair həll yolları irəli sürən, ilahiyyat sahəsində əsas biliklərə yiyələnmiş kadrlar hazırlamağı qarşısına məqsəd qoyub. AİI-də bir fakültə (İlahiyyat), 3 kafedra (Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai elmlər) mövcuddur. Burada tədris Azərbaycan dilində həyata keçirilir. Gələcəkdə rus, ingilis və ərəbdilli bölmələrin açılması və dünyanın müxtəlif dövlətlərindən tələbələrin institutda təhsilə cəlb olunmaları da nəzərdə tutulur. AİI-də təhsil iki istiqamətdə - islamşünaslıq və dinşünaslıq üzrə



həyata keçirilir. İslamşünaslıq ixtisası üzrə standartlara İslam dininin teoloji, tarixi, sosioloji, psixoloji və fəlsəfi aspektlərdən öyrənilməsini təmin edən fənlər daxil edilib. Bu ixtisasın standartlarında ənənəvi İslam elmləri ilə yanaşı, təkcə bu dini deyil, ümumilikdə, bütün dinləri müxtəlif yönlərdən tədqiq edən din sosiologiyası, din psixologiyası, din fəlsəfəsi, məzhəblər tarixi, dinlər tarixi və digər fənlər də öz əksini tapır. İslamşünaslıq ixtisasına yiyələnənlərin həm din xadimi, həm də İslam dini üzrə mütəxəssis kimi fəaliyyət göstərmələri nəzərdə tutulur. Dinşünaslıq ixtisası üzrə standartların hazırlanmasında Azərbaycan reallıqlarını nəzərə almaqla, dünyanın digər aparıcı universitetlərində mövcud olan dini tədqiqatlar (religious studies) bölmələrinin standartlarından faydalanılıb. Bu standartlara İslam, Yəhudilik, Xristianlıq, Hind və Çin dinləri kimi dünyada mövcud olan böyük dinlərin öyrənilməsini nəzərdə tutan fənlər daxil edilib. Həm islamşünaslıq, həm də dinşünaslıq ixtisaslarının standartlarına multikulturalizm, Azərbaycan tarixi, fəlsəfə, məntiq, eləcə də ərəb və ingilis dillərinin öyrənilməsini nəzərdə tutan fənlər daxil edilib.

"Din sahəsində mütəxəssis yetişdirərkən bir məqama xüsusi diqqət yetirilməlidir. Cəmiyyətə təkcə savadlı din mütəxəssisləri və xadimləri deyil, savadla yanaşı, Azərbaycanın milli dəyərlərini və ictimai strukturunu mənimsəmiş kadrlar lazımdır. Unutmaq olmaz ki, din müasir dünyada, təəssüf ki, təkcə mənəviyyat deyil, eyni zamanda təhlükəsizlik məsələsidir", - deyə rektor bildirib.

Dinin insanların mənən zənginləşməsində geniş təsir imkanlarına malik olduğunu söyləyən DQİDK sədri **Mübariz Qurbanlı** vurğulayıb ki, dinin insanların həyatındakı rolunu danmaq, funksiyalarından düzgün faydalanmamaq, habelə ondan sui-istifadə hallarına yol vermək dövlət və cəmiyyət qarşısında yeni problemlər, təhlükələr yarada bilər: "Dini-etnik zəmində qarşıdurmaların artdığı, dindən istifadə edən radikal elementlərin geniş vüsət aldığı və ona bilərəkdən rəvac verildiyi bir dövrdə cəmiyyətdə dözümlülüyə nail olunması, müxtəlif din və mədəniyyətlərə mənsub insanların sülh şəraitində yaşayışının təmin olunması hər bir dövlətin qarşısında duran vacib məsələlərdəndir".

Komitə sədri deyib ki, Ümummilli Liderimiz Heydər Əliyevin xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə qayıdışı onun növbəti xilaskarlıq missiyasının başlanğıcı oldu. Məhz Ulu Öndərin sayəsində milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişdi, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanıldı, bu dəyişikliklərin fonunda ölkədə dini etiqad azadlığı bərqərar oldu. Vətəndaşların vicdan azadlığı Konstitusiyamızın 48-ci maddəsində öz əksini tapdı və Azərbaycan Respublikasının "Dini etiqad azadlığı haqqında" Qanununda geniş şəkildə təsbit olundu.

davamı səh. 6

# "HEYDƏR ƏLİYEV İLİ" ÇƏRÇİVƏSİNDƏ "DİNİ TƏHSİL: MÖVCUD VƏZİYYƏT VƏ PERSPEKTİVLƏR" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

əvvəli səh. 5









Ümummilli Lider Heydər Əliyev tərəfindən böyük peşəkarlıq və həssaslıqla hazırlanan, milli-mənəvi dəyərlərə qayıdışın bünövrəsini formalaşdıran, xalqın keçmişinə, adət-ənənələrinə, inanclarına dövlət səviyyəsində qayğı göstərən, ölkədə dini etiqad azadlığını tam təmin edən dövlət-din münasibətləri modelinin əsası qoyuldu. Ulu Öndərin azərbaycançılıq konsepsiyasına uyğun olaraq ölkədə dövlət-din münasibətlərinin, millətlərarası və dinlərarası dialoqun genişlənməsi üçün əlverişli şərait yaradıldı, bu sahədə beynəlxalq hüquq normalarına uyğun qanunvericilik bazası formalaşdırıldı. Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılması da Ümummilli Liderin adı ilə bağlıdır. Eyni zamanda dahi şəxsiyyət Heydər Əliyevin müəllifi olduğu Konstitusiyamızda bu modelin tərkib hissəsi kimi Azərbaycanın demokratik, hüquqi, dünyəvi, unitar respublika olması öz əksini tapdı. Dini təhsil də diqqətdən kənarda qalmadı. Belə ki, Bakı İslam Universiteti fəaliyyətə başladı. Amma təhsil ocağının ödənişli əsaslarla fəaliyyət göstərməsi çətinliklər yaratdı. Hayastanın Azərbaycana təcavüzü, yüzminlərlə vətəndaşımızın öz torpaqlarından didərgin salınması və əhalinin sosial vəziyyətinin aşağı olmasından istifadə edən xarici dairələr Azərbaycanda dini radikal qrupları təşkilatlandırmağa cəhd etdilər. Bu sırada vəhhabilik və İrana bağlı şiəliyin qabarıq şəkildə təbliği görünməkdə idi. Dini inancdan öz geosiyasi maraqlarını həyata keçirmək vasitəsi kimi yararlanmağa çalışan ölkələr gənclərimizi dini təhsil adı ilə öz ölkəsindəki dini hövzələrə cəlb edə bildi. Təəssüf ki, onların bəziləri geriyə qayıdarkən təhsil aldıqları ölkələrin dövlət-din münasibətlərinin, özünəməxsus dini dünyagörüşünün, habelə həyat tərzinin təbliğatçısına çevrildilər. Bu proses cəmiyyətimizdə bir sıra problemlərin yaranmasına və təhdidlərə yol aça bilərdi. Azərbaycan cəmiyyətinin əsrlər boyu saysız-hesabsız təhdid və çətinliklər qarşısında tab gətirməsi, öz varlığını qoruyub saxlaması məhz onun milli kimlik və vətəndaş həmrəyliyi məsələsindəki həssaslığı sayəsində mümkün oldu.

M.Qurbanlı bildirib ki, milli kimliyimiz zamanla dinimizlə, onun mütərəqqi prinsipləri ilə çulğalaşaraq formalaşıb: "Sevgi, hörmət və fədakarlıq hisslərinin inkişaf etdirilməsində milli-mənəvi dəyərlərimizin rolu əvəzsizdir. Xüsusilə, gənc nəsilləri bu dəyərlərə uyğun, milli ruhda yetişdirmək olduqca əhəmiyyətlidir. Çünki gənclərin dini-əxlaqi dəyərlərdən uzaqlaşmaları onların adət-ənənələrimizə zidd düşüncələri mənimsəmələrinə, zərərli axın və ideologiyaların tələsinə düşmələrinə gətirib çıxara bilər ki, bu da cəmiyyətimizin gələcəyi üçün təhdiddir. Bu təhlükənin qarşısının alınması məqsədilə sağlam dini təhsil vermək və savadlı ilahiyyatçı yetişdirmək üçün bazanın formalaşdırılması labüd idi. Məhz bu baxımdan dini təhsil sahəsinə diqqət artırıldı".

Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etmək üçün Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan İlahiyyat İnstitutunun yaradıldığını diqqətə çatdıran natiq vurğulayıb ki, institut hazırda ödənişsiz əsaslarla çox qabaqcıl düşüncəyə malik, müasir dünyamızda gedən prosesləri mükəmməl bilən, elmlə dinin qarşılıqlı əlaqəsini gözəl anlayan, tolerant və multikultural dəyərləri, azərbaycançılıq ideologiyasını mənimsəyən, İslamda vəhdəti təbliğ və təşviq edən, heç bir halda məzhəb ayrı-seçkiliyinə yol verməyəcək kadrlar yetişdirir. İnstitutda dini dərslərlə yanaşı, dünyəvi elmlərin də yüksək səviyyədə tədrisi, əhatəli və dərin məzmunlu dərs vəsaitlərinin hazırlanması, tədrisin ümumi saf dini prinsiplər əsasında təşkil olunması, xurafatçılığa yol verilməməsi, tələbələrə vətənpərvərlik ruhunun aşılanması və sairə amillərə xüsusi diqqət yetirilir. Həmçinin təhsil ocağında qeyri-müsəlman dini icmalar da diqqətdə saxlanılır, mütəmadi kurslar təşkil edilir. AİI-də xarici tələbələr də təhsil alırlar. Burada məqsəd AİI-nin bölgənin əsas dini təhsil mərkəzinə çevrilməsidir: "Hazırda başqa ölkələrdə dini təhsil alınmasına ehtiyac duyulmur. Çünki AİI və müxtəlif dini kolleclər vasitəsilə kifayət qədər kadr hazırlamaq imkanımız var. Dövlət Komitəsində bu il "Dini təhsil" şöbəsi də yaradılıb. Dini təhsil sahəsində dövrün tələblərinə uyğun aparılan davamlı islahatlar təhsilin keyfiyyətinin artırılmasına, savadlı milli kadrların hazırlanmasına öz müsbət təsirini göstərir".

Daha sonra çıxış edən "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı **Bəxtiyar Sadıqov** deyib ki, Ulu Öndər Heydər Əliyev hər zaman milli və mənəvi dəyərlərimizə böyük önəm verib, hətta sovet dövrünün sərt tələb və qaydaları zamanı bu dəyərlərin yaşaması üçün əlindən gələni edib: "Xalqımız olduqca mühüm və bəşəriyyətə nümunə olan yüksək mənəvi keyfiyyətlərə, dəyərlərə malikdir. Mənəvi dəyərlər insanların yaddaşlarına yazılır, gördükləri işlərdə, əməllərdə qorunub saxlanır, gələcək nəsillərə ötürülür. Mənəvi dəyərə can verib onu real gücə çevirən isə insandır, geniş mənada götürdükdə xalqdır. Bu mənada Azərbaycan xalqı xoşbəxtdir. Çünki biz dünyanın ən böyük mənəvi xəzinəsinə malik xalqıq. Bizim milli-mənəvi irsimiz olduqca zəngindir, sözün bütün mənalarında ən gözəl milli nümunədir. Tarixin dərinliklərindən formalaşaraq bu günümüzə gəlib çatan bu sərvət heç vaxt tükənməyib və itirilməyib. Əksinə, zaman ötdükcə bu mənəvi irs ən yüksək kaloritlərlə və keyfiyyətlərlə daha da zənginləşib".

Baş redaktor vurğulayıb ki, tarixin müəyyən mərhələlərində xarici təsirlər, yad ideologiyalar da bu sərvəti xalqımızdan qopara bilməyib. Məsələn, sovet hakimiyyəti illərində cəmiyyətimizin mərkəz tərəfindən ideoloji repressiyalara məruz qalması belə, bizi öz inancımızdan, milli ənənə və adətlərimizdən ayıra bilməyib. Sovet hakimiyyətinin bu istiqamətdə bütün cəhdləri uğursuz olub. Sovet dövründə xalqımızın milli-mənəvi dəyərlərinə tapınması və mərkəzdən gələn məkrli təsirlərin zərərsizləşdirilməsi Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərliyi illərində baş verib. Məhz Heydər Əliyevin hakimiyyətdə olduğu dövrlərdə xalqımız sovet ideologiyasının unutdurmağa cəhd göstərdiyi mənəvi irsinin zənginliklərinə yiyələnib, milli dəyərlərinə daha hörmət və ehtiramla yanaşmağa başlayıb.

Cəmiyyətimizdə mənəvi dəyərlərin yaşadılması baxımından Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilən yolun Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirildiyini diqqətə çatdıran B.Sadıqov söyləyib ki, dövlət başçımız Ulu Öndərin nəcib əməllərini, əsasını qoyduğu mütərəqqi ənənələri layiqincə yaşadır, cəmiyyətimizdə dini-mənəvi dəyərlərin möhkəmləndirilməsinə xüsusi diqqət və qayğı ilə yanaşır: "Milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə ötürülməsi, xüsusən bu dəyərlərin qloballaşmanın təsiri altında yetişən gəncliyimizə çatdırılması, ümumən dünyaya tanıtdırılması ilə bağlı Heydər Əliyev Fondunun reallaşdırdığı tarixi layihələr bu siyasətin uğuruna xidmət edir. Mehriban xanım Əliyeva tərəfindən Azərbaycanın milli musiqisinin, folklorunun, milli xalçaçılıq, rəngkarlıq irsimizin, mətbəximizin, Novruz ənənələrinin qorunması və bütün dünyada təbliği istiqamətində atılan davamlı addımlar bu siyasətin nailiyyətləridir. Biz Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın milli-mənəvi dəyərlərimizə nə qədər bağlı olduqlarını bir daha torpaqlarımızın işğaldan azad edilməsindən sonra gördük. Təsadüfi deyil ki, bu gün azad edilmiş ərazilərimizdə aparılan quruculuq işlərinin bir istiqamətini tarixi və dini abidələrimizin bərpası təşkil edir. Ermənilər tərəfindən dağıdılmış, vandallığa məruz qalmış mədəniyyət nümunələrimiz, məscidlərimiz bərpa olunur. Bu sahədə görülən işlər həm də milli-mənəvi dəyərlər kontekstindən Qarabağın tarixi Azərbaycan torpağı olduğunu göstərən ən böyük milli faktordur".

Baş redaktorun fikrincə, Azərbaycanda uzun illər dini təhsillə bağlı ciddi problemlər vardı. Bu problemlər isə nəticə etibarilə dövlətçiliyimizə və milli təhlükəsizliyimizə ciddi təhdidlər yaradırdı. Təəssüf ki, xaricdə dini təhsil alan həmvətənlərimizin bir çox hallarda radikal, anti-Azərbaycan meyillərə cəlb olunması, onların müstəqil dövlətçiliyimizə qarşı yönələn cəhdlərdə iştirakı kimi hallara rast gəlinirdi. Bəlli xarici dairələr tərəfindən yeniyetmə və gənclərin səmimi dini duyğularının nadancasına istismar edilməsi Azərbaycanda dini durumun sağlamlaşdırılmasına əsas maneə idi. Bu kontekstdə Prezident İlham Əliyev tərəfindən AİI-nin yaradılması Ulu Öndərin müəyyən etdiyi dövlət-din münasibətlərinin dünyəvi və hüquqi prinsiplərlə tənzimlənməsində mühüm addım oldu: "Əminliklə və sevinclə deyə bilərəm ki, yeni nəsil ilahiyyatçılarımız cəhalətdən, anti-Azərbaycan meyillərindən uzaq, İslamın əsl mahiyyətinə uyğun təhsil əsasında formalaşır və cəmiyyətə faydalı xidmət edirlər. İlahiyyat İnstitutunun məzunları artıq paytaxtdan bölgələrə qədər hər yerdə səmərəli fəaliyyət göstərir, əhalinin dini maariflənməsinə töhfələr verirlər".

davamı səh. 7

# "HEYDƏR ƏLİYEV İLİ" ÇƏRÇİVƏSİNDƏ "DİNİ TƏHSİL: MÖVCUD VƏZİYYƏT VƏ PERSPEKTİVLƏR" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

əvvəli səh. 6



Konfransda Dağ yəhudiləri dini icmasının sədri **Milix Yevdayev**, Alban-Udi xristian dini icmasının sədri **Robert Mobili**, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının İctimai təşkilatlarla əməkdaşlıq üzrə yeparxiya şöbəsinin rəhbəri protoiyerey **Mefodi Əfəndiyev**, Azərbaycan Respublikası Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumunun təmsilçisi **Yozef Marek** də çıxış edərək Azərbaycanda mükəmməl dövlət-din münasibətləri sisteminin formalaşmasının və tətbiqinin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd ediblər. Bildirilib ki, bu sahədə Ulu Öndərin zəngin irsinin öyrənilməsi və təbliği təkcə tarix və müasir dövr baxımından deyil, həm də gələcəkdə proseslərin istiqamətini düzgün müəyyənləşdirmək və yönəltmək nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edir.

Natiqlər vurğulayıblar ki, Ulu Öndər müstəqiliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən qorumaq üçün cəmiyyətimizə, xalqımıza, ölkəmizə milli birlik, mənəvi həmrəylik və vətəndaş həmrəyliyinin lazım olduğunu dönə-dönə qeyd edirdi. Ölkəmizdə milli həmrəyliyin, vətəndaş birliyinin möhkəmlənməsi istiqamətində aparılan dövlət siyasəti özünün məntiqi nəticəsini 44 günlük Vətən müharibəsi dövründə göstərdi. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı bir dövlətdir. Burada multikultural mühitin yaranmasında Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Bu siyasətin doğru-düzgün aparılmasının nəticəsidir ki, Azərbaycanda din təhsili yüksək səviyyədədir. Dövlətimiz tərəfindən dini təhsil məsələlərinə cəmiyyətdə sülhə və sabitliyə təsir edən istiqamətlərdən biri kimi strateji əhəmiyyət verilir.

DQİDK-nın Dini təhsil şöbəsinin müdiri **Elnarə Kərimova** qeyd edib ki, hər bir dövlətin dini təhsillə bağlı qarşısına qoyduğu məqsədlər var və həmin məqsədlərə çatmaq üçün dövlətlər özlərinin yol xəritəsini müəyyənləşdirir. Həm İslam, həm də Qərb dünyasında dini təhsillə bağlı təcrübələrə nəzər yetirilsə, bunu aydın şəkildə görmək mümkündür: "Bu məqsədləri isə iki istiqamətdə qruplaşdırmaq olar. Birinci istiqamətdəki məqsədlər, demək olar ki, bütün ölkələr üçün eynidir. Yəni hər bir dövlət istəyir ki, dini təhsil sistemi onun qanunvericiliyinə uyğun olmaqla, milli maraqlarına cavab verməklə bərabər, həm də ölkədəki mövcud dini duruma, dinlər, məzhəblərarası münasibətlərə adekvat olsun. Eyni zamanda dövlətlər müvafiq strukturları vasitəsilə çalışır ki, dini duruma olduğu kimi, dini təhsil sahəsinə də mümkün qədər nəzarətini təmin etsin, habelə xarici təsirləri dini təhsillə bağlı proseslərdən kənar tutsun. Çünki din sahəsi hər bir dövlət üçün milli, ictimai, ideoloji təhlükəsizlik məsələsidir".

Şöbə müdirinin fikrincə, Azərbaycanın yerləşdiyi region, bu regionun həssaslığı, kənar təsirlərin mövcudluğu, İslam dünyasının bir parçası olması, Qərblə Şərqin arasında körpü rolunu oynaması, eyni zamanda ölkəmizdəki dini durum, tarixən formalaşmış tolerantlıq ənənələri və burada mövcud olmuş məzhəblərarası münasibətlər Azərbaycan hökumətini məcbur edir ki, dini təhsil sahəsinə digər ölkələr kimi insan hüquqları, vicdan azadlığı, mənəvi dəyər ilə yanaşı, həm də özünün hərtərəfli təhlükəsizliyi prizmasından baxsın. Bu mənada yuxarıda sadaladığımız məqsədlər Azərbaycan üçün də keçərlidir. Lakin onu da xüsusilə vurğulamaq lazımdır ki, dini təhsil sahəsində ümumi məqsədlərlə yanaşı, hər bir ölkənin spesifik xüsusiyyətlərindən irəli gələn fərqli yanaşmaları da ola bilər: "Elə isə Azərbaycan üçün bu yanaşmalar nədən ibarətdir? Birincisi, dini təhsil dövlətin nəzarətində olmaqla yanaşı, milli, ictimai, ideoloji təhlükəsizliyimizə təhdid yaratmamalıdır. Dindən ölkəmizin milli maraqlarına, ərazi və mənəvi bütövlüyünə, milli mədəniyyətinə xələl gəlməməlidir. Xarici dairələrin hansısa bir formada dindən və ya dini təhsildən dövlətimizə qarşı istifadə etməsinə imkan verilməməlidir. Bunun üçün Azərbaycan dövləti məcburdur ki, dini təhsilə nəzarət etməklə bərabər, bu sahədə prioritetlərini də müəyyənləşdirsin. Əslində, bu prioritetlər artıq müəyyənləşib. Dini təhsil dövlətin nəzarətində olmalı, qiyabi və ödənişli olmasına icazə verilməməli, məzhəblərüstü mahiyyət daşımalıdır. Bu sahənin, yəni dini təhsili olan kadrlar ölkənin hər yerində fəaliyyət göstərə bilməlidirlər. Xaricdə dini təhsil almış insanlar var. Onların bir qismi ərəb ölkələrində, digər bir qismi İranda oxuyub. Bu şəxslərin dünyagörüşünə, aldıqları təhsilə, eyni zamanda cəmiyyətin onlara münasibətinə baxdıqda görürük ki, onların fəaliyyəti Azərbaycanın hansısa bölgəsinə və ya hansısa məzhəbə yönəlikdir. Çünki onlar xaricdə məzhəbyönlü, məzhəb prinsiplərinə əsasən təhsil alıblar. Biz məzhəbləri inkar etmirik, lakin məzhəb zəminində təhsili də qəbul edə bilmərik. Bu nöqteyi-nəzərdən dövlətdin münasibətlərinin daha effektiv şəkildə tənzimlənməsi, dövlətin din siyasətinin uğurla həyata keçirilməsi, xarici dövlətlərin dini duruma təsirinin qarşısının alınması, dindarlar arasında və cəmiyyətdə müasir dünyagörüşünün təlqin edilməsi, eləcə də dünyəvi dövlətin əsaslarının düzgün təbliğ olunması üçün ixtisaslı dini kadrların hazırlanması ən vacib məsələlərdən biridir. Hazırda dini təhsilin keyfiyyətcə yeni mərhələyə qaldırılması ölkəmizin həm daxilə, həm də xaricə yönəlik məqsədlərinin reallaşdırılması üçün prioritet milli hədəf kimi qiymətləndirilə bilər".

Din sahəsində kadr hazırlığının mərkəzləşdirilmiş qaydada və planlı şəkildə həyata keçirilməli olduğunu deyən E.Kərimova bildirib ki, belə olacağı təqdirdə, gələcəyin din xadimləri öncə İslam kolleclərində, daha sonra AİI-də təhsil alacaqlar: "Bu da dövlətin idarəçiliyi və nəzarəti altında din sahəsində ardıcıl və mərhələli təhsil sisteminin formalaşması deməkdir. Deməli, bu gün üçün qarşımızda duran əsas məqsədlərdən biri də AİI ilə bağlı reallaşdırdığımız məqsəd və prinsipləri orta ixtisas dini təhsil müəssisələrində də tətbiq etməyə nail olmaqdır".

AİI-nin dekanı, dosent **Elnurə Əzizova** isə qeyd edib ki, demokratik və dünyəvi dövlətlərin böyük əksəriyyəti siyasi, dini və mədəni keçmişinə uyğun olaraq dövlət məktəblərində öz din təhsili modelini seçərək inkişaf etdiriblər: "Nümunə olaraq, Danimarka, İsveç və Norveçdə məcburi din fənni; İngiltərə, İrlandiya, Almaniya, Finlandiya, Avstriya və digər ölkələrdə məcburi din-əxlaq fənni, Yaponiya və Fransa kimi ölkələrdə isə əxlaq fənni tədris olunur. Əlbəttə, dünyəvi-demokratik ölkələrdə tədris olunan din fənninin metodlarına dair vahid bir standart mövcud deyil. Müxtəlif metodların tətbiqində bir ölkənin din tədrisinə dair yanaşmasının, ictimai və mədəni strukturunun, dini dəyərlərin cəmiyyətdəki rolunun, din-dövlət arasındakı münasibətin, təhsil sisteminin özünəməxsus xüsusiyyətlərinin mühüm rolu vardır".

E.Əzizova xatırladıb ki, Azərbaycanın dövlət məktəblərində müstəqil din fənni tədris edilmir. Bununla birlikdə 2004-cü ildən ümumtəhsil məktəblərində tədris olunan "Həyat bilgisi" dərsliklərində dinlərlə əlaqəli əsas biliklər öyrədilir. Bu biliklərin məzmun və çərçivəsi Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün "Həyat bilgisi" fənni üzrə təhsil proqramı (kurikulum) nəzərə alınaraq hazırlanır. "Həyat bilgisi" dərsliklərində "din" mövzusu dinin tərifi, mənşəyi, məqsədi, dinlərin təsnifatı, Tanrı, peyğəmbər, vəhy kimi fövqəltəbii anlayışlar, dünyanın dərk olunması, insan hüquqları və tolerantlıq zəminində "dinin" təqdim olunması kimi məsələlər çərçivəsində və ayrı-ayrılıqda dinlərin nümunəsində deyil, ümumi din konsepsiyası əsasında tədqiq olunur. Dərsliklərdə dinə baxışı müəyyənləşdirən başqa bir mövzu dünyanın dərk olunmasında dinin rolu ilə əlaqəli yanaşmadır. Ümumilikdə dərsliklərdə dini və elmi dünya görüşün bir-birinə alternativ olaraq təqdim edilməsi nümunələrinə rast gəlmək mümkündür. Dinə baxışla əlaqəli digər önəmli məsələ isə dinin insan hüquqları çərçivəsində dəyərləndirilməsidir. Dərsliklərdə insan hüquqları və tolerantlıq fonunda dinə yer ayrılmasının zəruriliyi ilə yanaşı, dinin həm tarixdə, həm də müasir dövrdə tolerantsızlıq və terror məqsədilə də istifadə olunduğunun nümunələrinə yer verilir, din ekstremizm və terrorla münasibətdə də qiymətləndirilir. Tarixdə dini zəmində fərqliliklərə qarşı təqib və zorakılığın müasir dövrdə də davam etdirilməsi riski vurğulanır. Xüsusilə, xarici ölkələrdən gələn zərərli dini ədəbiyyatın, informasiyanın təbliğinin, xalqımızın milli təfəkkürünə yad olan dini radikal çağırışların qarşısının alınması, xarici ölkələrdə yerləşən dini-terror qruplaşmaları ilə əlaqədə olan bəzi dini təşkilatların fəaliyyətinin nəzarətdə saxlanması, ictimai asayişin pozulmasına, şəxsiyyətin şərəf və ləyaqətinin alçaldılmasına istiqamətlənən bu kimi qanunazidd fəaliyyətlərin qarşısının alınmasına dair fəaliyyətlər qeyd olunur. Dini ekstremizm və terror kontekstində İslamla əlaqəli qərəzli ictimai rəyin mövcud olduğu və bu düşüncələrin ortadan qaldırılmasının müsəlmanların da öhdəsinə düşdüyü dərsliklərdə vurğulanan məsələlərdəndir".



Azərbaycan İlahiyyat İnstitutunun tələbəsi Aqşin Məmmədov qeyd edib ki, bu tədris ocağında "Dinşünaslıq" ixtisası üzrə təhsil aldığı müddətdə bütün dünya dinləri ilə əlaqəli fənləri öyrənib. Peşəkar müəllimlər tərəfindən tədris edilən bu fənləri lazımi şəkildə mənimsədikdən sonra milli şüurlu ilahiyyatçı kimi yetişmək imkanı var. Bu baxımdan da ölkədə yeganə dini ali təhsil müəssisəsi olan Azərbaycan İlahiyyat İnstitutu ən yaxşı seçimdir: "Azərbaycan İlahiyyat İnstitutunda biz həm İslam elmləri (fiqh, əqaid, kəlam, təfsir və s.), həm də dünyəvi elmlər (tarix, ingilis dili, sosiologiya, fəlsəfə, məntiq, psixologiya) öyrənirik. Buna görə də həm dünyəvi elmlər, həm də dini elmlər vasitəsilə əldə olunan məlumatları müxtəlif aspektlərdən dəyərləndirmək imkanımız yaranır. Belə ki, Azərbaycanda din sahəsində yüksəkixtisaslı kadrlara ehtiyac olduğunu nəzərə alsaq, biliklərə dərindən yiyələnməyimiz vacibdir. Həmçinin müxtəlif dilləri (ərəb, ingilis dili, rus dili) öyrənmək şansı əldə edirik. İslam və digər dinlərlə əlaqəli klassik mətnləri oxumaq qabiliyyətmizi formalaşdırırıq. Sinif otaqlarımız lazımi vəsaitlə tam təchiz olunub. Müəllimlərimiz dərsləri müasir texniki vasitələrlə bizə izah edir. Kitabxanada dərslərimizi və araşdırma mövzularımızı rahatlıqla hazırlamaq üçün normal şərait və vəsait mövcuddur. Ərəb dili, ingilis dili, rus dili kimi beynəlxalq dilləri öyrənmək üçün AİI tərəfindən bizə ödənişsiz kurslar təşkil edilir. Həmçinin bir sıra din elmləri sahəsində də institutumuzdakı kurslardan faydalanırıq. Biz öz dinimizi, dilimizi və milli kimliyimizi daha yaxşı bilməliyik. Bu kimlik bizə gələcək həyatımızda, eləcə də Azərbaycan xalqının təhsil baxımından savadlı inkişaf etməsində çox əhəmiyyətlidir. Buna görə də AİI-də hər zaman Azərbaycan tarixində baş verən hadisələr, eləcə də Azərbaycan dilində edilən xitabət qaydaları və milli atributlarımız daim ön plandadır".

A.Məmmədov vurğulayıb ki, AİI-də heç bir tələbə və müəllim hansısa dinə, məzhəbə qarşı qərəzli şəkildə yanaşmır. Biz, həmçinin digər dini konfessiyaların təmsilçiləri ilə görüşür və bu görüşlər sayəsində nəzəri olan biliklərimizi praktik olaraq daha da möhkəmləndiririk. Müxtəlif beynəlxalq konfranslarda iştirak etməyimiz bizim, həm də dünyagörüşümüzə müsbət mənada təsir göstərir. Xaricdən gələn qonaqlar, eləcə də xaricdə təhsil alan müəllimlərimiz vasitəsilə digər dövlətlərin dini məsələləri ilə tanış oluruq.

# SƏYAVUŞ HEYDƏROV: ERMƏNİLƏRİN QARABAĞDA DAĞITDIĞI MƏSCİDLƏRİN DAŞLARI İRAN BAZARLARINDA DA SATILIB

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun APA-ya müsahibəsi*




**- Səyavuş müəllim, bu gün Azərbaycan üçün dini təhlükəsizlik əsas prioritet istiqamətlərdən biridir. Bununla bağlı sizin düşüncələrinizi öyrənmək istəyirik.**

- Sizinlə tamamilə razıyam. Ölkəmiz elə bir coğrafi mövqedə yerləşir ki, burada geoiqtisadi və geosiyasi maraqlar nəinki toqquşur, mən deyərdim ki, bu maraqlar açıq müharibə vəziyyətindədir. Böyük dövlətlər regionda öz maraqlarını təmin etmək üçün bir çox vasitələrdən istifadə edirlər. Azərbaycanın Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsində əldə etdiyi qələbə ölkəmizə olan təzyiqləri kifayət qədər artırıb. Bilirsiniz, güc mərkəzləri təbii sərvətlərlə zəngin olan ölkəmizin qüdrətli olmasını, müstəqil siyasət yürütməsini istəmir. Onlar rahatlıqla idarə olunan və həmin mərkəzlərin maraqlarını təmin edən dövlətləri dəstəkləyirlər. Ermənistanın bir çox məsələdə dəstəklənməsi də bununla bağlıdır. Çünki Ermənistan faktiki olaraq müstəqil olmayan və başqalarının diktəsi ilə hərəkət edən ölkədir. Təbii ki, belə bir şəraitdə bizim üçün dini-ideoloji təhlükəsizlik məsələsi bir nömrəli məsələyə çevrilib. Milli təhlükəsizliyimizin tərkib hissəsi olan dini-ideoloji təhlükəsizlik Azərbaycana yönəlmiş dini mövqedən təhdidlərə, xüsusilə, İranın təxribat və pozuculuq xarakteri daşıyan fəaliyyətinə qarşı qalxan rolunu oynayır.

**- Yeri gəlmişkən, özünü müsəlman adlandıran İran nə üçün Ermənistanı dəstəkləyir? Sizcə, onların məqsədi nədir?**

- Azərbaycan öz tarixi boyu bu gün olduğu qədər heç vaxt güclü olmayıb. Ölkəmiz istər siyasi, istər iqtisadi baxımdan kifayət qədər güclü dövlətə çevrilib. Vətən Müharibəsi nəticəsində biz torpaqlarımızı işğaldan azad etmişik və orada quruculuq işləri həyata keçiririk. İranı güclü və qüdrətli Azərbaycan qəti surətdə qane etmir. İran tarixən Azərbaycana qarşı məkrli mövqedə olub. Burada ikinci məsələ İranın dini istismar etməsi və siyasiləşdirməsi ilə bağlıdır. İran öz siyasətini həyata keçirmək üçün dini örtük olaraq istifadə edir. Onlar təxribat və pozuculuq fəaliyyətini dindən istifadə edərək reallaşdırırlar. Səmimi şəkildə İslam dəyərlərinə sadiq bir dövlət məscidləri yerlə-yeksan edən, Xocalıda günahsız insanlara divan tutan ermənilərə dəstək verərmi? Əsla verməz. 30 il ərzində ermənilər bizim məscidlərimizdə donuz, inək saxlayıblar. Minarələrimiz azansız qalıb. Qəbiristanlarımız dağıdılıb. Bütün bunları edənləri dəstəkləmək İslam dəyərləri ilə daban-dabana ziddir. Onu da qeyd etməliyəm ki, dağıdılmış evlərin, eləcə də məscidlərin daşları Ermənistanla yanaşı, onun "əziz" qonşusu İranın bazarlarında da satılıb. Bütün bunlar əlbəttə ki, təəssüf doğurur. İslam mənəvi kamillik və ali dəyərlər mənbəyi olduğu halda bu dini siyasiləşdirən İran ən böyük zərbəni elə İslamın özünə vurur. İkinci Qarabağ müharibəsində şəhid olan övladlarımızın böyük əksəriyyəti həm də müsəlman idi. Bu qədər müsəlmanı şəhid edənləri dəstəkləyən ölkənin dindən və mənəviyyatdan danışmağa haqqı yoxdur.

**- Səyavuş müəllim, hüquq-mühafizə orqanlarının əməliyyatları nəticəsində son dövrlərdə İranın casus şəbəkəsinin üzvləri saxlanılıb. Ölkəmizdə dövlət-din münasibətləri baxımından bu hadisəni necə qiymətləndirirsiniz?**

- İran Azərbaycanda mövcud olan dövlət-din münasibətlərinə hər vəchlə zərbə vurmağa çalışır. Ölkəmizin dünyəvi dövlət modeli, bu model çərçivəsində bütün dinlərin, o cümlədən İslam məzhəblərinin birgəyaşayış ənənəsi İranın maraqlarına cavab vermir. İran Azərbaycanda dinin siyasiləşdirilməsinin və siyasi proseslərə alət edilməsinin tərəfdarıdır. Bu məqsədlə Azərbaycanda müəyyən şəxslərdən istifadə edərək casus şəbəkəsi yaratmaq və hər hansı təxribatlar törətmək istəsələr də, hüquq-mühafizə orqanlarının sayıqlığı nəticəsində bu şəbəkələr vaxtında ifşa edilərək zərərsizləşdirilib. Ancaq biz bu prosesləri düzgün qiymətləndirməliyik. Hər bir vətəndaşımız dini-mənəvi dəyərlərimizin saflığının qorunmasına töhfə verməli, dinin siyasiləşdirilməsinə, radikalizm və ekstremizmə qarşı açıq mövqe nümayiş etdirməlidir. Biz dünyada çoxlarının arzuladığı hüquqi, demokratik, dünyəvi dövlət qurmuşuq. Təcrübə göstərir ki, dünyəvi dövlət modelində dini-mənəvi dəyərlərin sağlam mühitdə inkişafı üçün daha münbit və əlverişli şərait mövcuddur. Biz bunun bariz nümunəsini ölkəmizdə görürük. Bu gün din xadimləri və bütün dini icmalar dövlətin qayğısı ilə əhatə olunub. Belə olan halda biz ölkəmizdə dini təhlükəsizlik mühitini gücləndirməli və yad ünsürlərin Azərbaycana nüfuzetmə cəhdlərinin qarşısını birlikdə almalıyıq.

**- Siz bir neçə gün öncə millət vəkili Fazil Mustafaya qarşı törədilən sui-qəsd cəhdi haqqında nə düşünürsünüz? Sizcə, burada hansı məqamlar var?**

- Öncə onu qeyd edim ki, millət vəkili Fazil Mustafaya qarşı törədilmiş bu cinayət birmənalı olaraq terror aktıdır. Belə bir terror aktı hər bir dövlət xadiminə, məmuruna, o cümlədən mənə də qarşı törədilə bilər. Fazil Mustafa kifayət qədər intellektual savada, dini biliklərə malik, dövlətin milli maraqlarını müdafiə edən, cəmiyyətin maariflənməsinə dəstək verən, xurafat və cəhalətə qətiyyətli mübarizə aparan millət vəkilidir. Mən törədilmiş terror aktını qətiyyətlə pisləyirəm. O ki qaldı burada olan məqamlara, mən istintaq və əməliyyat-axtarış fəaliyyətinin aparıldığı dövrdə hər hansı konkret fikir səsləndirməyin tərəfdarı deyiləm. Ancaq Fazil bəy özü də bu terroru törədənlərin kimliyi ilə bağlı ehtimalını səsləndirib. Mən də həmin ehtimalı bölüşürəm. Hüquq-mühafizə orqanları məsələyə yekun hüquqi qiymət verdikdən sonra daha dolğun münasibət hər kəsdə formalaşacaq. Onu qeyd etmək istəyirəm ki, kimliyindən asılı olmayaraq bu terroru törədənlərin məqsədi ölkədə ictimai-siyasi sabitliyi, əmin amanlığı pozmaq, vətəndaşlarımızda xof yaratmaqdır. Lakin heç bir terror və təxribat xalqımızı haqlı yolundan, dövlətimizi ədalətli mübarizəsindən döndərə bilməyəcək. Ölkə başçısının rəhbərliyi ilə dövlətimizin təhlükəsizliyi etibarlı əllərdədir. Terrorçular heç vaxt istədiklərinə nail ola bilməyəcəklər.

# "ARTIQ BİRGƏYAŞAYIŞIN VAXTI ÇATIB" - DİNİ İCMA NÜMAYƏNDƏLƏRİNDƏN QARABAĞDA YAŞAYAN ERMƏNİLƏRƏ MÜRACİƏT

Vətən müharibəsində Zəfərimizin əldə olunmasında ölkəmizdəki tolerantlığın, multikultural dəyərlərin, xüsusilə milli və dini həmrəyliyin xüsusi rolu olub. Hazırda qarşımızda duran başlıca vəzifə bu dəyərlərimizi, milli sərvətimizi qorumaq, möhkəmləndirmək, gücləndirmək və yeni nəslə ötürməkdir. Dünyada gedən proseslər və mənəvi böhranın getdikcə dərinləşməsi onu göstərir ki, Azərbaycan dünya üçün sülhü təbliğ edən bir platforma, strategiya, model yaradıb. Bunun yaranmasında ölkəmizdə mövcud olan bütün dini konfessiyalar, icmalar xüsusi fəallıq göstərib, xüsusi rol oynayıblar.

Bunu jurnalistlərə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov söyləyib.

O bildirib ki, qeyri-islam dini icmalarının nümayəndələri azərbaycanlıların soyqırımının 105-ci ildönümü ərəfəsində Qubaya səfər ediblər. Səfər zamanı yəhudi, xristian, müsəlman icmasının nümayəndələri bir daha erməni separatçılarını, onların havadarlarını sülhə dəvət ediblər.

"Çağırışımızda artıq düşmənçiliyə son qoymağın zamanının çatdığı, birgəyaşayışın, birlikdə çalışmağın vaxtı olduğu bir daha elan edildi. İcma nümayəndələri Qarabağda yaşayan ermənilərə də müraciət edərək, özlərini nümunə göstərdilər. Necə ki, onlar ölkəmizdə xoşbəxt yaşayıb-yaradırlar, erməniləri də Azərbaycanda bu cür xoşbəxt yaşamağa dəvət etdilər. Biz əminliklə deyə bilərik ki, Azərbaycan dünya üçün sülhpərvər, sülhü təbliğ edən gözəl məkana çevrilib. Biz hamılıqla fəxr edirik ki, belə bir ölkədə, belə bir dövlətdə yaşayırıq. Tolerantlıq, multikulturalizm ənənələri, birgəyaşayış bizim həyatımızın ayrılmaz bir hissəsidir", - deyə Səyavuş Heydərov bildirib.

# DÖVLƏT KOMİTƏSİ APELLYASİYA MÜRACİƏTLƏRİNİN NƏTİCƏLƏRİNİ AÇIQLAYIB

AZƏRBAYCAN RESPUBLİKASI
DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən İslam dininə aid ibadət yerlərində (məscidlər) vakant vəzifələrin tutulması üçün cari ilin 13-24 fevral tarixlərində keçirilən müsahibənin nəticələri ilə bağlı 14 nəfər Apellyasiya Komissiyasına ərizə ilə müraciət edib.

15-16 mart tarixlərində Komissiyanın keçirdiyi iclasda 2 nəfərin iddiası təmin edilib, Müsahibə Komissiyasının qərarı tam obyektiv və əsaslı hesab edildiyi üçün 9 nəfərin müsahibə nəticələri qüvvədə saxlanılıb.

Apellyasiya ərizəsi ilə müraciət edən 3 nəfər iclasda iştirak etməyib.

# QEYRİ-İSLAM DİNİ İCMALARININ NÜMAYƏNDƏLƏRİ QUBA SOYQIRIMI MEMORİAL KOMPLEKSİNİ ZİYARƏT EDİBLƏR

Martın 28-də qeyri-islam dini icmalarının nümayəndələri Qubaya səfər ediblər. Səfər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi ilə reallaşıb.

1918-ci ildə azərbaycanlılara qarşı törədilmiş soyqırımının 105-ci ildönümü ilə əlaqədar təşkil olunan səfər çərçivəsində qonaqlar əvvəlcə Qubada dağ yəhudilərinin yığcam şəkildə yaşadıqları Qırmızı qəsəbədə yerli icma nümayəndələri ilə görüşüb, burada Ümumdünya Dağ Yəhudilərinin Tarix-Etnoqrafiya Muzeyi və "Giləki" sinaqoqu ilə yaxından tanış olublar.



Bildirilib ki, Qırmızı qəsəbə dünyada İsraildən sonra yəhudilərin ən yığcam yaşadıqları nadir məkandır. "Qafqazın Yerusəlimi" adlandırılan qəsəbədə məskunlaşan yəhudilər uzun illərdir öz adət-ənənələrini yaşadırlar. Burada yəhudilərin dini icması və milli mədəniyyət mərkəzi fəaliyyət göstərir.

Dağ yəhudilərinin Qubada məskunlaşmaları XVIII əsrin ortalarına təsadüf edir. Fətəli xanın Quba xanlığına rəhbərlik etdiyi dövrlərdə ətraf ərazilərdə yaşayan yəhudilər buraya köçməyə başlayıblar. Həmin vaxt salınan yəhudi məhəllələrində 10-dan çox sinaqoq inşa olunub. Uzun illərdir buradakı yəhudilər azərbaycanlılarla birlikdə sülh və əmin-amanlıq şəraitində yaşayırlar.

Zəngin memarlıq üslubuna malik "Cümə" məscidi ilə tanışlıq zamanı qonaqların diqqətinə çatdırılıb ki, məbəd 1802-ci ildə tikilib. Bu məscid təkcə Qubada deyil, bütün şimal-şərqi Azərbaycanda ən qədim dini mərkəzlərdən biridir.

Sonra Quba Soyqırımı Memorial Kompleksinin ərazisində soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidə ziyarət olunub, soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb, dini konfessiyaların nümayəndələri dualar oxuyublar.

Səfərdə iştirak edən qeyri-islam dini icmalarının nümayəndələrinin diqqətinə çatdırılıb ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb. Kompleksdə XX əsrin əvvəllərində Quba şəhərinin müxtəlif ərazilərinin görüntüləri, o zaman burada aparılan tikinti-quruculuq işləri, əhalinin həyat tərzi haqqında fotolar var. Burada quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür.

Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkarlanıb. Bundan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işləri aparılıb. Tədqiqatlar nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyən edilib.

Vurğulanıb ki, ermənilərin törətdikləri bu soyqırımı cinayətinin araşdırılması məqsədilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən Fövqəladə İstintaq Komissiyası yaradılıb. Lakin 1920-ci ildə Xalq Cümhuriyyətinin süqutu ilə bu proses dayandırılıb, baş verənlərin sonadək araşdırılması və hadisələrə müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınıb. Yalnız 80 il sonra – 1998-ci il martın 26-da Ulu Öndər Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 Mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilib.

Qonaqlar Quba Soyqırımı Memorial Kompleksinin xatirə kitabına ürək sözlərini yazıblar.

Səfərdə Azərbaycandakı Dağ yəhudiləri, "Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası", Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, "Azərbaycan Bibliya Cəmiyyəti", "Yeddinci Günün Adventistləri", "Xilaskar Yevangelik-Lüteranlar", "Bakı şəhəri Yeni Apostol", "Həyat sözü Xristian", Yevangelist Məsihi Baptistlərinin "Aqape", "Həyat sözü", "Həyatverici lütf", "Alov", "Vineyard", "Krişna Şüuru", "Molokan ruhani-xristian" və "Bəhai" dini icmaları təmsil olunub.

# DÖVLƏT KOMİTƏSİNİN KÖNÜLLÜLƏRİ DİNİ TƏHSİL VƏ DİNŞÜNASLIQ EKSPERTİZASI ŞÖBƏLƏRİNİN İŞ PROSESİ İLƏ TANIŞ OLUBLAR



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) "Könüllü fəaliyyət" layihəsinin iştirakçıları DQİDK-nın Dini təhsil şöbəsinin iş fəaliyyəti ilə tanış olublar.

Şöbə müdiri Elnarə Kərimova şöbənin fəaliyyəti barədə könüllülərə məlumat verərək, struktur bölmənin respublikada dini təhsillə bağlı vəziyyəti öyrəndiyini, bu istiqamətdəki prosesləri izlədiyini bildirib. Qeyd edib ki, şöbə dini təhsil müəssisələrinin fəaliyyətinin qanunvericiliyə uyğunlaşdırılması məqsədilə onlara mövcud qanun çərçivəsində kömək göstərir, eyni zamanda onların fəaliyyəti ilə bağlı monitorinqlər həyata keçirir, dini təhsil müəssisələrinin strukturu, onların rəhbərləri, fəaliyyət yönümü haqqında məlumatların toplanması və sistemləşdirilməsini təmin edir.

Görüşün sonunda E.Kərimova könüllüləri maraqlandıran sualları cavablandırıb.

***

"Könüllü fəaliyyət" layihəsinin iştirakçıları DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin iş fəaliyyəti ilə də tanış olublar.

Şöbə müdiri Nahid Məmmədov bildirib ki, şöbə dini təyinatlı ədəbiyyatın, audio və video materialların, mal və məmulatların və dini məzmunlu başqa məlumat materiallarının yayılmasına nəzarəti, eyni zamanda dinşünaslıq ekspertizasını həyata keçirir.

Nahid Məmmədov ekspertiza prosesi barədə könüllülərə geniş izahat verərək qeyd edib ki, ədəbiyyatlarda dini nifrət və düşmənçiliyə rəvac verən fikirlərin olmaması ekspertiza zamanı nəzərə alınan əsas meyarlardandır. Bildirib ki, təqdim edilən ədəbiyyat



insanpərvərlik prinsiplərinə zidd deyilsə, nəşrdə dini nifrət və düşmənçiliyə rəvac verəcək, dinlər və məzhəblərarası münasibətlərə xələl gətirəcək fikirlər yer almırsa, ölkəmizdəki mövcud dini duruma, tolerant və multikultural mühitə mənfi təsir göstərəcək ifadələr əks olunmursa, onun ölkə ərazisində çapı və yayılmasına heç bir qadağa yoxdur.

N.Məmmədov könüllüləri maraqlandıran sualları da cavablandırıb.

# İƏT-İN BAŞ KATİBİ AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ MƏDƏNİ VƏ DİNİ İRSİN MƏHV EDİLMƏSİNDƏN BƏHS EDİB

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Taha Cenevrədə Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasının 52-ci Sessiyasının yüksək səviyyəli seqmentində çıxışında bildirib ki, 30 ilə yaxın Ermənistanın işğalı altında olmuş və hazırda azad edilmiş Azərbaycan ərazilərində mədəni və dini irs abidələri məhv edilib. O diqqətə çatdırıb ki, Azərbaycan hökuməti qədim irs abidələrinin bərpası istiqamətində böyük işlər görür.

Rəhbərlik etdiyi təşkilatın insan hüquqları və azadlıqlarının təmin edilməsinə, hər bir fərdin ləyaqətinə hörmətlə yanaşılmasına böyük əhəmiyyət verdiyini diqqətə çatdıran Baş katib bu istiqamətdə müxtəlif konfransların təşkil olunduğunu, İƏT-in nəzdində xüsusi strukturun fəaliyyət göstərdiyini bildirib. O əlavə edib ki, "Qurani-Kərim"in təhqir edilməsi hamı tərəfindən pislənilməli, bu əməlləri törədənlər bütün dünyada qınaq obyektinə çevrilməlidir. H.B.Taha vurğulayıb ki, islamofobiya ilə mübarizə bütün dövlətlərin borcudur və bu, mədəniyyətlərarası dialoqun təmin edilməsində mühüm amildir.

İƏT-in Baş katibi çıxışında Əfqanıstandakı hadisələrə, Cammu və Kəşmir məsələsinə, Rohinca müsəlman icmasının vəziyyətinə də toxunub.





# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*

## Ağalı Zaur Kamil oğlu



Vətən müharibəsində mərdliklə döyüşərək şəhidlik məqamına yüksələn qəhrəman oğullarımızdan biri də şəhid Ağalı Zaur Kamil oğludur. O, 1996-cı il dekabr ayının 11-i Lənkəran rayonunun İstisu qəsəbəsində dünyaya göz açıb. Zaur 2003-cü ildə Səadət Qurbanov adına Lənkəran rayon İstisu qəsəbə tam orta məktəbin 1-ci sinfinə daxil olub, 2014-cü ildə həmin məktəbin 11-ci sinfini bitirib. O, 2015-ci ilin aprel ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Lənkəran rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılıb. Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində xidmətə başlayıb. Zaur 2016-cı ilin oktyabrında hərbi xidmətini uğurla başa vurub.

2020-ci il 27 sentyabrda Vətən müharibəsi başladıqdan bir gün sonra ordu sıralarına çağırılan Zaur Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəyə aparılıb. Bir neçə gün orada qaldıqdan sonra Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərə qoşulub. Cəbrayıl və Qubadlı cəbhəsində bir çox yaşayış məntəqəsinin işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Zaur əsgər və zabit heyəti arasında dərin hörmətə sahib olub. Qəhrəmanımız oktyabrın 22-si Qubadlı uğrunda gedən döyüşlərdə aldığı ağır qəlpə yaralarından şəhadət zirvəsinə ucalıb. Şəhidimiz Lənkəranın İstisu qəsəbəsində dəfn edilib.

Qəhrəmanlığı və qorxmazlığı ilə seçilən əsgər Ağalı Zaur Kamil oğlu iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

Zaur ailəli idi. Onun Ayxan adlı bir oğlu var.

## Ağamalıyev Şəhriyar Əvəz oğlu



Şəhid Ağamalıyev Şəhriyar Əvəz oğlu 1989-cu il sentyabrın 28-də Hacıqabul rayonunda doğulub. 1996-cı ildə İlqar Ələkbərov adına Hacıqabul şəhər 1 saylı tam orta məktəbin 1-ci sinfinə gedib. 2007-ci ildə məktəbi bitirən Şəhriyar Bakı İslam Universitetinə qəbul olunub. O, ixtisasca şərqşünas olub. 2012-ci ildə Hacıqabul rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan Şəhriyar Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində xidmət keçib. Hərbi xidməti ərzində nümunəvi əsgər kimi komandir və əsgər yoldaşlarının böyük hörmətini qazanıb. Xidmətini başa vurduqdan sonra bir müddət SOCAR-da çalışıb. Lakin hərb sənətinə marağı onu hərbçi olmağa sövq edib və qəhrəmanımız 2017-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində (TTM) kadr hazırlığı kursunu bitirməklə "leytenant" rütbəsi alaraq Silahlı Qüvvələrin Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayıb. Bir neçə ay xidmət etdikdən sonra Tərtərdə yerləşən "N" saylı hərbi hissənin kəşfiyyat bölüyündə xidmətinə davam edib.

Vətən müharibəsinin ilk günündən Kəlbəcər istiqamətindən döyüşə atılan Şəhriyar elə ilk saatlardan öz qorxmazlığı və xüsusi döyüş bacarığı ilə düşməni qorxuya salmağı bacarıb. Onun yüksək idarəçilik qabiliyyəti ilə komandirlik etdiyi bölük hücuma keçib, düşmənin mövqelərini darmadağın edib. Murovdağ yüksəkliklərinin işğaldan azad edilməsindən sonra Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Qəhrəmanımız 2020-ci il sentyabrın 30-da Suqovuşan döyüşləri zamanı şəhid olub. Şəhidimiz Hacıqabul Şəhidlər Xiyabanında dəfn edilib.

Şəhriyargilin ailəsində ilk şəhid əmisi Ağamalıyev Daşqın olub. O, Birinci Qarabağ müharibəsi zamanı 31 yaşında şəhidlik məqamına ucalıb. Daha bir əmisi Coşqun Ağamalıyev isə hazırda polkovnik rütbəsində hərbi xidmətini davam etdirir. Deməli, Şəhriyarın hərb sahəsini seçməsi onun ailəsindən gələn bağlılıq idi. Onun da taleyi şəhid əmisinin taleyi ilə eyni olub, Şəhriyar da əmisi kimi eyni yaşda, eyni amal uğrunda canından keçib.

İgidliyi ilə fərqlənən qəhrəmanımız leytenant Ağamalıyev Şəhriyar Əvəz oğlu iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və 3-cü dərəcəli "Vətənə xidmətə görə" medalları ilə təltif edilib.

Şəhidimiz evli idi, onun iki övladı var. Oğlu İmran və şəhadətindən sonra dünyaya gələn qızı Şəhnur bizə əmanət qalıb.

## Ağamirov Şıxmir Qabil oğlu



Şəhid Ağamirov Şıxmir Qabil oğlu 1990-cı il aprelin 5-də Qusar rayonunda anadan olub. O, 1996-cı ildə Tofiq İsmayılov adına Qusar şəhər 6 saylı tam orta məktəbin 1-ci sinfinə gedib, 2007-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. 2008-ci ilin aprelində Qusar rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan Şıxmir Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində xidmətdə olub. Hərbi qulluq illərində hərb sənətinə yaranan marağı və doğma Vətənə olan sevgisi onun yolunu xidmətdən ayırmayıb. Qəhrəmanımız tərxis olduqdan sonra sənədlərini "Gizir hazırlığı" kursuna verib. Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq və qərar qəbuletmə bacarığının, həmçinin, fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanlardan müvəffəqiyyətlə keçən Şıxmir kursu bitirib "gizir" rütbəsi almağı bacarıb. Qəhrəmanımız 2009-cu ildən Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə taqım komandirinin müavini vəzifəsində fəaliyyətə başlayıb. O, hərbçi kimi Füzuli, Beyləqan və Ağcabədidə xidmət edib.

Vaxtının çox hissəsini təlimlərdə keçirən qəhrəmanımızın ən böyük xidmətlərindən biri isə 2016-cı ilin aprelində düşmən təxribatına cavab olaraq başlayan 4 günlük müharibədə olub. Şıxmir təlimlərdə əldə olunan peşə vərdişləri ni real döyüş meydanında tətbiq edib. Xidmət illərində əldə etdiyi nailiyyətlərə görə 2020-ci ilin iyununda "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilib.

2020-ci il sentyabr ayının 27-də başlayan Vətən müharibəsində tarix yazan igidlərimizdən biri olan Şıxmir döyüşlərə Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətindən başlayıb. O, Cəbrayıl, Qubadlı, Hadrut, Xocavənd və Şuşa uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Noyabrın 7-də Şuşanın azad edilməsi zamanı ön xətdəki döyüşçülərimizin silah təminatını həyata keçirən Şıxmirin olduğu avtomobil düşmən tərəfindən minaatan mərmisi ilə vurulub. Maşında yaralanan üç döyüşçümüzdən ikisinin həyatını xilas etmək mümkün olsa da, Şıxmir Ağamirov bir gün sonra şəhidlik zirvəsinə ucalıb.

Şəhidimiz 2015-ci ildə ailə qurub. Dörd il övlad həsrətindən sonra qızları dünyaya gəlib. Amma Şıxmir körpə qızı Amiranın üzünü doyunca görə bilməyib. Qızı ilə yeni doğulanda və beş aydan sonra evə məzuniyyətə gələndə görüşə bilib.

Döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə baş gizir Ağamirov Şıxmir Qabil oğlu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə əsgər Abışov Zəka Zakir oğlu ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

**Hazırladı: Ramil Hikmət**

# TANIYAQ-TANIDAQ: ŞUŞA MƏSCİDLƏRİ

## Yuxarı Gövhər ağa məscidi



"Kitabi-tarixi Qarabağ" əsərinin müəllifi Mir Mehdi Xəzaninin yazdığına görə, 1768-1769-cu illərdə Qarabağ xanı İbarahimxəlil xan tərəfindən inşa edilən məscid 1866-1867-ci illərdə təmir olunmuşdur. İbadət evinin daxili sahəsi 558 m², qoşa minarəsinin hündürlüyü isə təxminən 30 m-dir.

Məhəmməd Baharlının "Qarabağnamə"sində qeyd edilir ki, Şuşanın baş meydanında 1759-cu ildə Pənahəli xan tərəfindən qamışdan ikiqapılı məscid tikilmiş, 1768-ci ildə isə onun yerində mərhum xanın oğlu İbrahimxəlil xan tərəfindən daha möhtəşəm məscid ucaldılmışdır. Təxminən 100 ildən sonra elə bu yerdə onun qızı Gövhər ağanın tapşırığı və vəsaiti ilə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən daha bir məscid inşa edilmişdir. Buna qədər mövcud olmuş "Cümə" məscidinin binasının görünüşü ilə o zaman Qafqazı səyahət edən rus rəssamı Vasili Vereşaginin çəkdiyi şəkildən tanış ola bilərik. Rəssamın çəkdiyi şəkildəki məscid binası əzəmətlidir. Onun giriş hissəsi Səfəvi memarlığına xas olaraq həddən artıq böyük baştağdan qurulmuşdur. Baştağın üzərində dam örtüyü Avropa memarlığına məxsus ampir şəklində işlənmişdir. Bu məscid binasının yerində tikilən Yuxarı Gövhər ağa məscidinin fasadı isə üç eyniölçülü tağla irəli çəkilərək binanın şimal, yəni ön hissəsi boyunca uzanan eyvan şəklində həll olunmuşdur. Yeni binada Qurani-Kərimdən ayələr, məscidin inşa tarixi və Gövhər ağanın vəsiyyətnamələrini əks etdirən çoxlu daş kitabələrə rast gəlmək olar. Binanın ikinci mərtəbəsi və minarələrdəki ornament, eləcə də kitabələr məşhur Azərbaycan şairi və nəqqaşı Mir Möhsün Nəvvab tərəfindən işlənmişdir.

Səxavəti və xeyriyyəçiliyi ilə ad çıxaran xan qızı Gövhər ağa məscidin bir hücrəsini mədrəsə etmiş, bura ibadətə gələn və ehtiyacı olanlara həftədə bir dəfə yardım, məsciddə Quran oxuyan və azan verən müəzzinlərə məvacib ayırmışdı. Gövhər ağa vəfat edəndən sonra məscidin həyətində dəfn edilmiş, az sonra isə nəşi Məkkəyə aparılaraq orada torpağa tapşırılmışdır.

## Aşağı Gövhər ağa məscidi



Şuşa şəhərinin tanınmış memarlıq abidələrindən biri də Aşağı Gövhər ağa məscididir. Şəhərin Qapan meydanında yerləşən məscid üç tağbəndli geniş eyvanı ilə seçilir. Mərkəzdə quraşdırılmış oxvari tağbənd yan tərəflərdəki yarımdairə şəkilli tağbəndlərdən nisbətən hündürdür. Hər iki yarımdairə tağbəndin üstündə isə memar yüngül relyefli xətlərlə haşiyələnmiş dördbucaqlı həndəsi fiqurlar işləmişdir. Eyvanın həmin hissəsi hər iki yandan üzəri üfüqi xətlərlə bölünmüş şaquli plyastrlarla məhdudlaşır. Eyvanın sağ və sol tərəflərindəki bir cüt alt-üst pəncərə və onların yan tərəflərindəki taxçalar ümumi şəkildə haşiyələnmişdir. Bu haşiyələrin düzbucaqlı şəkildə olmasına baxmayaraq, pəncərə və taxçaların örtük konstruksiyaları yarımdairə şəklində inşa olunmuşdur. Şuşanın digər yaşayış binaları kimi bu məscidin də damı dördyamaclı şəkildədir. Memar Aşağı Gövhər ağa məscidinin minarələrini arxa fasadın yan tərəflərində ucaltmışdır. Məscidin daxili ilə deyil, bayır tərəfi ilə bilavasitə əlaqəsi olan bu minarələrin kürsülüyü binanın ümumi divar səviyyəsindən azacıq hündürlüyə malik bir məsafəyə qədər təbii əhəngdaşı ilə hörülmüşdür. Sonra isə silindrik şəkilli minarə gövdələri öz çardağına qədər bişmiş kərpiclə inşa olunmuşdur. Memar bu məscid minarələrinin gövdəsini bütövlükdə "Allah" sözünün təkrar yazısı ilə bəzəmişdir. Bu sözlər minarə gövdələrinə xüsusi kərpic düzümü ilə çox məharətlə yazılmış və heyrətləndirici qarışıq ornament yaranmışdır. Aşağı Gövhər ağa məscidinin əsas giriş qapısı bilavasitə onunla üzbəüz tikilmiş ikimərtəbəli mədrəsənin həyətinə açılır. Mədrəsə həyət tərəfdən bütün fasadı boyu geniş eyvanlarla əhatə olunmuşdur.

İbadət evi Şuşanın 1855-ci ilə aid baş planında da öz əksini tapmışdır. Məscid həm Aşağı məscid, həm də Kiçik məscid kimi tanınır. Məsciddə ilk yenidənqurma-təmir işləri 1874-1875-ci illərdə aparılmışdır. İnşası memar Kərbəlayi Şəfixan Qarabaği tərəfindən həyata keçirilmiş və Gövhər ağanın maddi vəsaiti əsasında həyata keçirildiyinə görə tikiliyə onun adı verilmişdir.

## Saatlı məscidi



Saatlı məscidi 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmişdir. Şuşa şəhərinin tarixini tədqiq edən Çingiz Qacarın yazdığına görə, Saatlı məscidinin yerində 1759-cu ildə Pənahəli xanın tikdirdiyi məscid və mədrəsə olmuş, böyük Azərbaycan şairi Molla Pənah Vaqif bu mədrəsədə dərs demişdir.

Məscid Şuşanın Saatlı məhəlləsində tikildiyi üçün belə adlanır. O, məhəllə məscidi olsa da, şəhərin digər məhəllə məscidlərindən həm həcmi, həm memarlıq quruluşu, həm də dekorativ tərtibatı ilə seçilir. Tədqiqatçı Rizvan Qarabağinin yazdığına görə, bura Kərbəlayi Səfixan Qarabağinin tikdiyi son minarəli məscid olmuşdur. Sonrakı illərdə bu sənətkarın tikdiyi məscidlərdə uca minarələr olmamış, onları damın üstündə güldəstə formalı kiçik şərəfələr əvəz etmişdir. Amma memarlıq üslubundakı belə kəskin dəyişikliyin nə ilə bağlı olması heç yerdə izah olunmur. Məscidin fasadı yalnız divar və assimmetrik düzülüşə malik qapı və pəncərələrdən ibarətdir.

Saatlı məscidinin interyer həlli bədii kamillik nümunəsi hesab oluna bilər. Tavana dayaq olan dörd səkkizbucaqlı daş sütunu olan ibadət zalı üçnefli məkana malikdir. Bunun nəticəsində zalda sanki sonsuz sayda tağ keçidlər varmış təəssüratı yaranır. Divarların səthi həndəsi fiqurlar və nəbati naxışlarla tərtib olunmuşdur. Tək minarə binanın arxa tərəfində yerləşdirilmişdir. Belə ehtimal edilir ki, minarə məscidlə eyni vaxtda deyil, sonrakı illərdə ucaldılmışdır.

İstedadlı memarın tikdiyi bütün binaların divarında belə bir cümlə yazılmışdır: "Qarabağdan olan Kərbəlayi Səfixan tərəfindən tikildi". Əlbəttə, bu daş imzalar sonrakı dövrlər üçün sənəd kimi böyük əhəmiyyət daşıyır. Lakin bu yazıya baxmadan da özünəməxsus üslubu baxımından onun müəllifinin Kərbəlayi Səfixan olduğu məlumdur.

Qeyd edək ki, Şuşada ümumilikdə 17 məscid olmuşdur. Lakin şəhərin 1992-ci ildə ermənilər tərəfindən işğal edilməsindən sonra onların əksəriyyəti tamamilə dağıdılmışdır.

# İƏT KOPENHAGENDƏ QURANİ-KƏRİMİN YANDIRILMASINI PİSLƏYƏN BƏYANAT YAYIB

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibliyi martın 24-də Danimarkanın paytaxtı Kopenhagendə iki fərqli yerdə müqəddəs Qurani-Kərimin nüsxələrinin yandırılması ilə bağlı son təxribat xarakterli hərəkətləri kəskin şəkildə pisləyib.

İƏT-in bəyanatında qeyd edilib ki, eyni fərdi və ifrat sağ qruplar tərəfindən ifadə azadlığı adı altında törədilən bu cür təxribatlar İslam və müsəlmanları hədəf alan nifrət və dözümsüzlük yaymaq məqsədi daşıyır.

İƏT-in Baş katibliyi Danimarka hökumətini bu nifrət cinayətlərini törədənlərə qarşı lazımi tədbirlər görməyə və gələcəkdə bu cür təxribatların qarşısını almağa çağırıb.

Martın 20-də danimarkalı ifrat sağçı siyasətçi və müsəlmanlara qarşı çıxışlar edən Rasmus Pauldan Türkiyənin Kopenhagendəki səfirliyinin önündə Qurani-Kərimin nüsxəsini yandırmışdı. Onun bu təxribatı Türkiyə ilə Danimarka arasında gərginliyə səbəb olmuşdu.

# On bir ayın sultanı: Ramazan

Ramazana bəzən “orucluq ayı” mənasına gələn “şəhri-şıyam” da deyirlər. Ərəb mənşəli “savm” (cəmdə işləndikdə “sıyam”) kəlməsi Azərbaycan dilinə tərcümədə “nəfsə hakim olmaq” deməkdir. Dini termin kimi isə “niyyət edərək dan yeri ağarmağa başlayandan Günəş batanadək yeməkdən, içməkdən və cinsi münasibətdən uzaq olmaq” anlamındadır.

Ramazan müsəlmanlar üçün müqəddəs və mübarək aydır. Çünki Qurani-Kərim bu ayda nazil olmağa başlamış, Həzrət Məhəmmədə (s) peyğəmbərlik bəxş edilməklə İslam dini meydana gəlmişdir.

Ramazan ayı bəzən 29, bəzən də 30 gün olur. Ay 29 gün davam edəndə də orucluq tam hesab edilir. Çünki vacib olan ayı bütünlüklə oruclu keçirməkdir. Necə ki, Rəsulullah (s) doqquz Ramazan orucu tutmuş, onların dördü 29, beşi isə 30 gün davam etmişdir.

## Oruc

İslamın əsas şərtlərindən biri Ramazan ayında oruc tutmaqdır. İnsanları pis əməllərdən çəkindirən və axirətdə Cəhənnəmdən əzabından qoruyan oruc ibadətinin bu ayda vacib buyurulması Qurani-Kərimdə də əksini tapmışdır: “İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) ramazan ayında nazil edilmişdir. Aya (ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar...” (əl-Bəqərə, 185).

Allah Elçisi (s) də hədislərində Ramazan orucunun fəzilətlərindən belə bəhs etmişdir: “Kim inanaraq və mükafatını Allahdan gözləyərək Ramazan orucunu tutarsa, keçmiş günahları bağışlanar” (“Riyazus-Salihin”).

Oruc ibadətinin həm mənəvi, həm də sağlamlıq baxımından faydaları çoxdur. Bu ibadətin fəzilətlərindən biri insanlarda mərhəmət və xeyirxahlıq hislərini gücləndirməsidir. Belə ki, ömrü boyu çətinliyin nə olduğunu bilməyən zənginlər, kasıbların halını anlaya bilməzlər. Lakin həmin insanlar oruc tutarsa aclığın nə olduğunu başa düşərək yoxsulların əziyyətlərini hiss edər və qəlbində şəfqət duyğuları yaranar. Onlara kömək edərək sıxıntılardan qurtarmağa çalışar.

Orucluq, eləcə də insana nemətlərin qiymətini öyrədir. Çünki insan sahib olduğunun dəyərini onu itirdikdən sonra bilir. Oruc tutanda bir müddət dünya nemətlərindən uzaq olan şəxs yenidən onları əldə etdikdə sevinər, həm də Allaha şükür etməyi öyrənər.

Bu ayin həm də insanı sağlamlaşdırır. Çünki on bir ay ərzində çalışan insan orqanizmi orucluq vaxtı dincəldikdən sonra funksiyasını daha rahat yerinə yetirir. Müasir tibb elmi də orucun faydalarını göstərmişdir. Fransız alimi, Nobel mükafatı qazanmış Aleksi Karel məsələ ilə bağlı fikrini belə bildirmişdir: “Orucluq müddətində orqanizmdə yığılmış qida maddələri işlənir, sonra isə onların yerinə yeniləri gəlir və vücudda təzələnmə baş verir. Bu və digər baxımdan oruc sağlamlıq üçün faydalıdır”.

Məsələ ilə bağlı Rəsulullah (s) da hədislərində buyurmuşdur: “Oruc tutun ki, sağlam olasınız” (“Kəşfül-Xafa”).

Orucluq, eləcə də insanlara səbirli və dözümlü olmağı öyrədir. Ay ərzində yemək, içmək və digər ehtiyaclardan imtina edən insan sonralar qarşısına çıxan əziyyətlərə qatlaşır. Savaş zamanı düşmənlə mübarizədə də yorulmur və çətinliklər qarşısında ona təslim olmur.

Həddi-buluğa çatmış, ağlı yerində olan hər müsəlmana oruc vacibdir. Üzürsüz səbəbdən oruc tutmamaq günahdır və cəzası (kəffarəsi) vardır (Kəffarə, bir gün bilərəkdən tutulmamış oruca görə iki ay ardıcıl oruç tutmaq və ya altmış yoxsulu doyuzdurmaqdır). Oruc tuta bilməyən əldən düşmüş və yaşlı şəxslər isə Ramazanın hər günü üçün fidyə verirlər. Fidyənin miqdarı fitrə qədərdir.

Bəzi üzürlü səbəblər vardır ki, oruc tutulmaya bilər, yaxud tutulmuş orucu pozmaq olar: Xəstəlik, səfərə çıxmaq, məcburiyyət, insanı bihuş edən şiddətli aclıq, susuzluq, hamiləlik və əmzikli olmaq. Oruca niyyət edilməsi zəruridir. Niyyətsiz oruc məqbul deyildir. Ramazan orucuna axşamdan obaşdanlığadək (sahur) niyyət edilir (bəzi alimlərə görə əgər unudularsa günortayadək də niyyət etmək olar). Obaşdanlığa qalxıb yemək isə müstəhəbdir və Rasulullah (s) da hədislərində buna təşviq etmişdir: “Obaşdanlıqda yemək yeyin, çünki onda bərəkət vardır” (“Riyazus-Salihin”).

Orucunu tamamlayıb iftar vaxtına yetişən şəxs bundan sevinərək özünü xoşbət hiss edər. Allah Elçisi (s) isə hədislərində oruclunun iki sevinc anının olduğunu müjdələmişdir. Biri iftar vaxtı, digəri isə bu ibadətinə görə, Allahdan mükafatnın alması zamanıdır. Çünki oruc digər ayinlərdən fərqli olaraq sırf Allah razılığı üçündür.

## Etiqaf, Müqabilə, Təravih

Mübarək Ramazana məxsus ibadətlərdən biri də etiqafdır. Etiqaf bir yerdə “gözləmək, dayanmaq və özünü həbs etmək” anlamını verir. Dini termin kimi isə həddibülüğa çatmış müsəlmanın məsciddə ibadət məqsədi ilə bir müddət qalmasıdır.

Etiqafdan “Qurani-Kərim”də və hədislərdə bu barədə bəhs edilmişdir: “...Məscidlərdə ibadətdə (etiqafda) olduğunuz zaman onlarla (qadınlarınızla) yaxınlıq etməyin. Bunlar (bu hökmlər) Allahın hədləridir, bunları aşmayın! Allah (insanlara) hökmlərini bu cür bildirir ki, bəlkə, müttəqi olsunlar! (əl-Bəqərə, 187).

Etiqafda məqsəd savab qazanmaq və Qədr gecəsinə müvəffəq olmaqdır. Rəsulullah (s) bu səbəblə, ömrünün sonunadək Ramazan ayının son on gününü həmişə etiqafda keçirərmiş. Həzrət Əli (ə), Həzrət Aişə (r.a) və Əbu Hüreyrə (r.a) kimi səhabələr də Rəsulullahın (s) Ramazan gecələrini ibadətlə keçirdiyini, xüsusən də son günlərinə daha çox önəm verərək etiqafa çəkildiyini bildirmişlər.

Müqəddəs Ramazan ayinlərindən biri də müqabilədir. Qarşılıqlı oxumaq mənasına gələn müqabilə bir şəxsin “Qurani-Kərimi” yüksək səslə oxuması, qulaq asanların da onu kitabdan təqib etməsi deməkdir. Bu ayinin tarixi İslamın ilk illərindən başlamışdır. Hər il Ramazan ayında ilk vəhyin gəldiyi zamanlardan 632-ci ilədək (bu hadisə Həzrət Peyğəmbərin (s) vəfatınadək davam etmişdir) Həzrət Cəbrail (ə) və Allah Elçisi (s) birbirlərinə qarşılıqlı olaraq Quran-Kərim oxuyarlarmış. Hətta bu hadisə Rəsulullahın (s) dünyadan köçdüyü il iki dəfə təkrarlanmışdır.

Beləcə Allah Elçisinin (s) vəfatından sonra onun davranışlarını özlərinə nümunə götürən müsəlmanlar bu ayini günümüzədək davam etdirərək Ramazan ayında hər gün bir cüz (Qurani-Kərimin 30/1-hissəsi) oxuyaraq Müqəddəs Kitabı xətm etməyə çalışırlar.

Ramazan ayına məxsus digər ibadət təravih namazıdır. O, səkkiz və ya iyirmi rükət qılınır. Ərəb mənşəli “təravih” kəlməsi “təraviha”nın cəmidir və Azərbaycan dilinə tərcümədə “oturmaq”, “istirahət etmək” anlamındadır.

Ramazan gecələrini əhya etmək (oyaq qalmaq) məqsəd ilə qılınan təravih namazından Quranda bəhs edilməsə də, məsələ ilə bağlı mənbələrdə çoxlu hədislərə rast gəlmək olar. Allah Elçisi (s) təravih namazının önəmindən bəhs edərək buyurmuşdur:“Kim inanaraq və mükafatını Allahdan gözləyərək Ramazan gecələrini namaz qılmaqla gündüzlərini də oruc tutmaqla keçirərsə, anasından doğulduğu gündəki kimi günahlardan təmizlənmiş olar” (İbn Macə).

Digər hədisə görə isə Rəsulullah (s) iki gecə təravih namazını qıldırmış, sonra üç gün məscidə gəlməmişdir. Ondan bunun səbəbini soruşanlara belə cavab vermişdir: “Sizin təravih namazını necə həvəslə qıldığınızı gördüm. Ancaq təravih namazını vacib buyurulmasını anlayacağınızdan qorxduğum üçün bunu davam etdirmədim”.

## Qədr gecəsi

Ramazan ayının ən önəmli özünəməxsusluqlarından biri də Qədr gecəsidir. Belə ki, dinimizin müqəddəs kitabı Qurani-Kərim məhz bu gecə nazil olmağa başlamış, Həzrət Məhəmmədə (s) peyğəmbərlik Qədr gecəsində bəxş edilmişdir. Ona görə də bəzən Ramazana “Quran ayı”da deyilir (bax: əl-Bəqərə, 185).

Qədr gecəsinin üstünlüyü, onun min aydan daha fəzilətli və xeyirli olması “əl-Qədr” surəsində də bəyan edilmişdir. Qədr gecəsi Allahın razılığını qazanmaq üçün namaz qılmaq, Quran oxumaq, etiqafa (bir yerdə dayanmaq, gözləmək) çəkilmək və tövbə edərək yaxşı işlər görməklə gecəni səhərə əhya açmaq (əhya “oyaq qalmaq” mənasını daşıyır ) müstəhəbdir.

Qədr gecəsinin Ramazan ayının hansı gecəsində olması barədə müxtəlif fikirlərə aydınlıq gətirən Rəsulullah (s): “Siz Qədr gecəsini Ramazanın son on gününün tək rəqəmli gecələrində axtarın”, - deyə buyurmuşdur. Bu səbəblə də Allah Elçisi (s) Ramazan ayının son on gününü etiqafa çəkilərmişdir.

## Ramazan bayramı

Rəsulullahın (s) Mədinəyə hicrətinədək orada iki bayram qeyd edilirdi. Lakin Allah Elçisi (s) Mədinəyə gəldikdən sonra özündə cahiliyə dövrünün izlərini daşıyan həmin bayramların yerinə sevinclə qeyd edəcək digər iki bayramla möminləri müjdələmişdi: “Allah-Təala sizə qeyd etdiyiniz bu iki bayram yerinə, daha xeyirlisini Ramazan və Qurban bayramını hədiyyə etdi” (“Sünən” Əbu Davud).

Rəsulullah (s) bayram gecəsi ibadət edər və hədislərində də bunu buyurarmış: “Savabını Allahdan umaraq Ramazan və Qurban bayramı gecələrində qalxıb ibadət edən kimsənin qəlbi qəlblərin öldüyü gün ölməz”(“Sünən” Əbu Davud).

Həzrət Peyğəmbər (s) bayram namazına getməzdən öncə bir neçə xurma yeyər, piyada namaza gedərmiş. Gedib-gələrkən də ayrı-ayrı yollardan istifadə edərmiş. Allah Rəsulunun (s) bayram namazına getməzdən öncə qüsl aldığı bildirilir. Həzrət Məhəmmədin (s) “Bu gün görəcəyimiz ilk iş namaz qılmaqdır” hədisindən anlaşılır ki, Rəsulullah (s) Ramazan bayramına namaz qılmaqla başlamışdır.

Bayramlar şənlik günləri olduğundan Peyğəmbərimiz (s) İslam dəyərlərini zədələməmək şərtilə bəzi oyun və əyləncələri seyr etməyə icazə vermişdir. Bunu Həzrət Aişədən (r.a) nəql edilən hədisdə də görmək olar. Məsələ ilə bağlı möminlər anası gördüklərini belə dilə gətirmişdir: “Bayram günü bir qrup həbəş, mizraq və qalxanlarını oynadaraq rəqs edirdilər. Allah Elçisi (s) məni çağırdı. Mən də gəlib başımı çiyininə qoyaraq onlara birlikdə tamaşa etdik” (“Səhihi-Müslim”).

Ancaq bu şənliklər həddini aşmamalı, günah sayılan əməllərə çevrilməməlidir. Çünki bayramlar bizə bəxş olunmuş ilahi ziyafətdir. Bu baxımdan, Allahın nemətlərini xatırlayıb, ona şükr etməyə daha çox ehtiyacımız vardır. Bayram günlərində yeyib-içmək və əylənməklə yanaşı, həm də bizə bayram ab-havasını yaşadan Rəbbimizə şükür etmək vacibdir. Qurani-Kərimdə buyurulduğu kimi, şükür nemeti artırar, qəfləti isə uzaqlaşdırar.

Ramazan bayramının mənbələrdə qeyd edilmiş digər adı “İydul-fıtır”dır (Fitrə bayramı), yəni həmin günlərdə fitrə paylandığı üçün ona, “Fitrə bayramı” da deyirlər. Fitrənin bayramdan əvvəl verilməsi daha yaxşıdır. Ancaq bayram namazından sonra da verilə bilər. Dini ehkamlara görə imkanlı şəxsin həm özünün, həm də həddi-büluğa çatmış ailə üzvlərinin fitrəsini verməsi vacibdir.

Bu mübarək aydakı ibadət və dualarınız qəbul olunsun. Evlərimizə bərəkət, ailələrimizə xoşbəxtlik, millətimizə qələbə sevinci bəxş olunsun, İnşallah.

Ramazan bayramınız mübarək! əziz soydaşlarımız.

Hazırladı: **Vüqar Hümmətov**

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini mart ayı ərzində də davam etdirmişdir.*

**Cari ay ərzində bu qəbildən olan tədbirlər:**

**1 mart** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən Rayon İcra Hakimiyyəti (RİH) və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Balakən rayonu Qullar kəndi Eyvaz Əliqayev adına 2 nömrəli tam orta məktəbində "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağcabədi rayonu ərazisində yerləşən hərbi hissədə "Hərbi qulluqçular arasında vətənpərvərlik ruhunun yüksəldilməsində mənəvi dəyərlərin rolu" mövzusunda;



**2 mart** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Xaçmaz RİH-in birgə təşkilatçılığı ilə rayonun İstisu qəsəbəsində "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialının birgə təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması, həmçinin onunla mübarizə" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH, Rayon Polis Şöbəsi, eləcə də Gənclər və İdman İdarəsinin (Gİİ) birgə təşkilatçılığı ilə Ucar şəhər 3 saylı tam orta məktəbində "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad RİH və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rayon Uşaq və Ailələrə Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə Qaraağac kənd tam orta məktəbində "Erkən nikaha yox deyək" mövzusunda;

**3 mart** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Samux RİH və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə 3 saylı tam orta məktəbdə "Yeniyetmələrin zərərli vərdişlərdən qorunması" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Beyləqan RİH və Beyləqan rayonu Peşə məktəbinin birgə təşkilatçılığı ilə "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində "Məişət zorakılığının qarşısının alınması, həmçinin onunla mübarizə" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH və Rayon Polis Şöbəsinin birgə təşkliatçılığı ilə Ucar rayonu Boyat kənd tam orta məktəbində "Yeniyetmə və gəncləri radikalizm və ekstremizmdən qoruyaq" mövzusunda;



**6 mart** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax şəhər E.Babayev adına 4 saylı tam orta məktəbində "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda;

**7 mart** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH, Şəki-Zaqatala Regional Təhsil İdarəsi və rayon "Gənclər evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə Sarıbulaq kənd tam orta məktəbində "Milli dövlətçiliyin möhkəmlənməsi: azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Ağdam şəhər 27 saylı köçkün tam orta məktəbində "Radikal və ekstremizm təmayüllü cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;

**9 mart** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH, İnsan Hüquqları üzrə Müvəkkilin Şimal Regional Mərkəzi və Xaçmaz Regional Mədəniyyət İdarəsinin Quba rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, rayon Gİİ, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Zəyəm kənd tam orta məktəbində "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda;

10 mart – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad RİH və QMİ-nin Sabirabad rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövsuzunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Samux RİH və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Lək kənd tam orta məktəbində "Məişət zorakılığına qarşı mübarizə" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH, Rayon Polis Şöbəsi və rayon GİI-nin birgə təşkilatçılığı ilə Ucar rayonu Sehran Salmanov adına Bağban kənd tam orta məktəbində "Narkomaniya və dini radikalizmin təhlükəsi" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Gədəbəy RİH-in təşkilatçılığı ilə Gədəbəy şəhər 1 saylı tam orta məktəbində "Qızların təhsil almasının önəmi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Samux Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə 1 saylı tam orta məktəbdə "Dini radikalizmə qarşı mübarizədə maarifləndirmə tədbirlərinin əhəmiyyəti" mövzusunda; DQİDK-nın təşkilatçılığı ilə Goranboy rayonu Əlirzalı kənd orta məktəbində "Dini radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda;

**13 mart** – DQİDK-nın təşkilatçılığı ilə Goranboy rayonu Yeniyol kənd orta məktəbində "Dini fanatizm və radikalizmin mahiyyəti və fəsadları" mövzusunda;

**14 mart** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Ağsu rayon GİI-nin birgə təşkilatçılığı ilə Ağsu şəhər 4 saylı tam orta məktəbdə "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, RİH və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Zazalı kənd tam orta məktəbində "Dini radikalizmlə mübarizədə gənclərin rolu" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar rayon GİI və rayon Gənclər Evinin Ucar rayonunda "Dini radikalizmlə mübarizədə təhsilin rolu" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Qobustan RİH-in birgə təşkilatçılığı ilə Qobustan rayonu Ə.Nəbiyev adına Təklə Mirzəbaba kənd tam orta məktəbində "Azərbaycan multikulturalizminin banisi - Heydər Əliyev" mövzusunda;

**15 mart** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə Ağdaş rayonunda "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıt şəhərindəki Hərbi Polis bölməsində "Gənclər və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın təşkilatçılığı ilə Goranboy rayonu Xanqərvənd kənd orta məktəbində "Radikal və ekstremizm təmayüllü cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın təşkilatçılığı ilə Daxili Qoşunların Bakıda yerləşən "N" saylı hərbi hissəsində "Milli dövlətçiliyin qorunmasında milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Daşkəsən rayonunda yerləşən N saylı hərbi hissədə "İslamda intihara cəhdin fəsadları" mövzusunda;

**16 mart** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Cəlilabad rayonu Heydər Əliyev Mərkəzində Ramazan ayının başlanması münasibətilə dindarlarla görüş; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Şəmkir RİH, Rayon Təhsil Şöbəsi və Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Şəmkir rayon Kür qəsəbə H.Z.Tağıyev adına tam orta məktəbində "Uşaqların vətənpərvərlik və tolerantlıq ruhunda tərbiyəsinin mənəvi aspektləri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin dəstəyi və Quba şəhər "Cümə" məscidi dini icmasının təşkilatçılığı ilə "Milli dövlətçiliyin möhkəmləndirilməsi: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH, N.Gəncəvi adına Mərkəzi Kitabxanalar Sistemi və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Zaqatala şəhəri İ.Qayıbov adına Qazangül tam orta məktəbində "Novruz bayramı: milli dəyərlərimizin təcəssümü" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayon Ləkit kənd tam orta məktəbində "Heydər Əliyev: azərbaycançılıq ideologiyasının banisi" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Tovuz RİH, YAP rayon təşkilatı və Qazax-Tovuz Regional Təhsil İdarəsinin Tovuz rayonu üzrə təhsil sektorunun birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanda dövlət-din modeli" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl RİH-in birgə təşkilatçılığı ilə Göygöl rayon Oqtay Cabbarov adına Firuzabad qəsəbə tam orta məktəbində "Yeniyetmə və gəncləri dini radikal təsirlərdən qoruyaq" mövzusunda;

**17 mart** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Saatlı rayonunda fəaliyyət göstərən dini icma sədrləri, din xadimlərinin iştirakı ilə Ramazan ayının başlanması münasibətilə tədbir; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Yardımlı RİH-in birgə təşkilatçılığı ilə "Dini radikalizm və ekstremizmə qarşı mübarizədə dini icmaların rolu" mövzusunda;

**23 mart** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Quba regional "ASAN xidmət" mərkəzi və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının birgə təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Ulu Öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" mövzusunda;



**27 mart** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Samux RİH və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Alıuşağı kənd tam orta məktəbində "Dini radikalizmin mahiyyəti və onunla mübarizə" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar rayon Heydər Əliyev Mərkəzi, rayon GİI-nin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda;

**28 mart** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonu Dəliməmmədli şəhəri M.Zeynalov adına tam orta məktəbində "Gənclərin zərərli dini cərəyanlardan və radikalizmdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Samux RİH və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Qovlarsarı kənd tam orta məktəbində "Dinimiz və milli-mənəvi dəyərlərimiz" mövzusunda;

davamı səh. 14

əvvəli səh. 13

# QISA-QISA

**29 mart** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin-nin təşkilatçılığı Vətənpərvərlik ruhunun yüksəldilmə-sində mənəvi və dini dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qusar rayonunda yerləşən N saylı hərbi hissədə "Vətənpərvərlik ruhunun yüksəldilməsində mənəvi və dini dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Ucar rayonu GİI-nin birgə təşki-latçılığı ilə Ucar Gənclər Evində "Dini abidələrimizə qarşı erməni vandalizmi" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Mingəçevir şəhərində "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi, Laçın RİH və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Ağcabədi rayonu, Taxta Körpü qəsəbəsində "Məişət zorakılığına qarşı mübarizə" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı rayon GİI və Saatlı "Gənclər Evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə Saatlı şəhər 2 saylı tam orta məktəbində "Narkomaniyaya qarşı mübarizə sağlam həyata təminatdır" mövzusunda, Saatlı Peşə liseyində isə "Gələcəyə sağlam gənclərlə" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəhər Tibb Kollecində "Narkomaniya və onun törətdiyi fəsadlar" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Qazax RİH və Qazax "Gənclər evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Qızların təhsil almasının önəmi" mövzusunda;

**30 mart** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Azərbaycan Texnologiya Universitetinin birgə təşkilatçılığı ilə "Yeniyetmə və gəncləri dini radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonu Tatarlı kənd orta məktəbində "Radikalizmə aparan yol - fanatizm" mövzusunda;

**31 mart** – DQİDK və Müdafiə Nazirliyinin 2023-cü il üçün birgə fəaliyyət planına əsasən, Beyləqan rayon "N" saylı hərbi hissədə "Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin, hərbi intizamının möhkəmləndirilməsində, hərbi qulluqçular arasında vətənpərvərlik ruhunun yüksəldilməsində dini dəyərlərin rolu" mövzusunda baş tutub.



DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müəllimlər və şagirdlərin, hərbçilərin, ictimaiyyət nümayəndələri və gənclərin iştirakı ilə keçirilən tədbirlərdə milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolundan danışılıb. Qeyd olunub ki, hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən birini də milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi təşkil edir.

Məktəblilərin zərərli vərdişlərdən və radikal dini təsirlərdən qorunmasının vacibliyini vurğulayan natiqlər bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərdən bəhs ediblər. Gənclərin radikal dini təsirlərdən, dini radikalizmdən qorunmasında təhsilin önəminə toxunublar. Tədbirlərdə həmçinin narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından, ölkəmizdə mövcud olan tolerantlıq ənənələrindən də bəhs olunub. Bundan başqa, ailədaxili ünsiyyət və münasibətlərin əhəmiyyəti, tənzimlənməsi, zorakılığın növləri, zorakılıqdan qorunma yolları və s. barədə ətraflı fikir mübadiləsi aparılıb.

Çıxışlar zamanı Ümummilli Lider Heydər Əliyevin millət və vətən sevgisindən qaynaqlanan fəaliyyəti haqqında danışılıb. Vurğulanıb ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi tarixi hadisədir. Ulu Öndər daim Azərbaycanın inkişafı naminə çalışıb, nəticədə ölkəmiz dünyanın aparıcı ölkələrindən birinə çevrilib. Onun azərbaycançılıq ideologiyası bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edərək dünya azərbaycanlılarının milli istinad mənbəyinə çevrilib. Qeyd edilib ki, Ulu Öndərin uğurlu siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən layiqincə davam və inkişaf etdirilir.

Tədbirlərdə "Heydər Əliyev və azərbaycançılıq", "Azərbaycan gəncliyi və mənəvi dəyərlər", "Üfüqdəki gələcək" kimi sənədli filmlər nümayiş olunub, mövzular ətrafında fikir mübadiləsi aparılıb və tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

## Bölgələrdə 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı tədbirlər keçirilib




Bölgələrdə 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı silsilə tədbirlər keçirilib.

Yevlaxda baş tutan tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Yevlax bölgəsi üzrə şöbəsinin əməkdaşı Valeh Rəşidov, Rayon Gənclər və İdman İdarəsi, eləcə də Gənclər Evi sosial xidmət müəssisəsinin əməkdaşları iştirak ediblər.

Göyçay şəhər "Mərkəz" məscidində keçirilən tədbirə DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin müdiri İlham Qəribov, Rayon İcra Hakimiyyətinin (RİH) nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər, eləcə də Göyçay, Ucar, Kürdəmir və Zərdab rayonlarında fəaliyyət göstərən dini icma sədrləri, din xadimləri, Saatlıda baş tutan tədbirə isə DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin əməkdaşı Elvin İbrahimov, Rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Əmrah Əhmədov, "Saatlı Gənclər Evi" sosial xidmət müəssisəsinin əməkdaşı Anar Səfərxanlı, Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin əməkdaşları, mədəniyyət işçiləri və gənclər qatılıblar.

Daha bir anım tədbiri Zaqatala şəhər N.Hüseynov adına 2 №-li tam orta məktəbində keçirilib. Qeyd olunan tədbirdə DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin müdiri İlqar Vəliyev, Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi İlqar Qədimov, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin Zaqatala rayon sektorunun məsləhətçisi Xamis İsmayılov, məktəbin müəllimləri və yuxarı sinif şagirdləri iştirak ediblər.

Balakən rayonu Qazbinə kənd tam orta məktəbində keçirilən anım tədbirində DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin baş məsləhətçisi Elməddin Atakişiyev, YAP Balakən rayon təşkilatı Gənclər Birliyinin sədri Nurlan Şibliyev, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Hacı Muradov, "Gənclər evi" sosial xidmət müəssisəsinin əməkdaşları, məktəbin müəllim və yuxarı sinif şagirdləri iştirak ediblər.

Ağstafa rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirə DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin baş məsləhətçisi Pərvin Zeynalov, Ağstafa RİH başçısı Aparatının İctimai siyasi və humanitar işlər üzrə şöbəsinin müdir müavini İsa Məmmədov, Gənclər və İdman İdarəsinin rəisi Əziz Məsmalıyev, müəllimlər və gənclər, Ağsu şəhər 4 saylı tam orta məktəbində baş tutan tədbirə isə DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin əməkdaşı Tural Vahidov, Ağsu rayon Gənclər və İdman İdarəsinin rəis müavini Təhmasib Məhəmmədhüseyin, məktəbin müəllim və şagirdləri qatılıblar.



Qax rayon Zərnə kənd tam orta məktəbində keçirilən tədbirə DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin əməkdaşı Tərlan Nəzərov, Qax rayon Gənclərin Karyera və İnkişaf Mərkəzinin direktoru Elmir Həşimli, məktəb müəllimləri və yuxarı sinif şagirdləri qatılıblar.

Bu mövzuya həsr olunmuş növbəti tədbir DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Ombudsmanın Cənub Regional Mərkəzi və Rəhim Tağıyev adına Masallı rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə



Tarix-Diyarşünaslıq Muzeyində baş tutub.

Oğuz rayonunda təşkil olunan "dəyirmi masa" isə DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Oğuz Rayon Gənclər və İdman idarəsi, Oğuz Rayon Heydər Əliyev Mərkəzi, Rayon Mədəniyyət Mərkəzi və Təhsil sektorunun birgə təşəbbüsü ilə keçirilib. Tədbirdə DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin əməkdaşı Samir Salehov, Oğuz Rayon Heydər Əliyev Mərkəzinin direktoru Mehriban Abbasova, Oğuz Rayon Gənclər və İdman idarəsinin rəis müavini Şaiq Rüstəmov, Oğuz Rayon Mədəniyyət Mərkəzinin direktoru Anar Hüseynov, Rayon Təhsil sektorunun əməkdaşı Günel Abdullayeva, həmçinin şəhid ailələri iştirak ediblər.

Anım mərasimlərində Soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilib. Çıxışlarda vurğulanıb ki, 1918-ci il 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri azərbaycanlılara qarşı soyqırımı törədiblər. Rəsmi mənbələrə əsasən, soyqırımı nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşüb. Bildirilib ki, Ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci tarixli fərmanda bu hadisələrə siyasi qiymət verilib və azərbaycanlıların ermənilər tərəfindən soyqırımına məruz qalması ilk dəfə rəsmi surətdə bəyan edilib.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

**«Şəki rayonu Baş Küngüt kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 17 may 2011-ci il
Qeydiyyat №-si: 100111A1 – 516

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İsmayılov Cavid Yaqub oğlu, Məmmədov Məcid Qurban oğlu, İlyasov Fəxrəddin Əlyəsər oğlu, Hüseynov Bahadır Məcnun oğlu, Şabanov Rafiq Kənan oğlu, Nəzirov Vüqar Başarət oğlu, Kərimov Elşən Həsən oğlu, Kərimov Qabil Alcan oğlu, Kərimov Ayaz Əliosman oğlu, Əsədov Bəylər Abozər oğlu, Səlimov Rəşad Şövkət oğlu, İsmayılov Sadiq Ənvər oğlu, Məmmədov Saleh Qurban oğlu, Məmmədov Famil Kamil oğlu, Səmədov Soltan Əhmədiyə oğlu, Kərimova Gülnar Əhmədiyə qızı, Rəsulov Elmir Vaqif oğlu, Xasməmmədov Rahim Cumay oğlu, Məmmədov Asif Fikrət oğlu, Səmədov Varis Hamlet oğlu, Rəsulov Vaqif Ağam oğlu, Mustafayev Elmar Mustafa oğlu, Səmədov İlham Tönfir oğlu, Məmmədov Şahin Qaffar oğlu, İsmayılov İntiqam Yaşar oğlu, Abdullayev Namizət Şöyüf oğlu, Məmmədov Şamil Şaban oğlu, Qaffarov Eldar Nizam oğlu, Əhmədov Vasif Əhməd oğlu, Əhmədov Kamran Əhməd oğlu, İslamov Cəmil Əvvəl oğlu, Bədəlov Vidadi Aydın oğlu, Məmmədov Fariz Kamil oğlu, İsmayılov Eldəniz Teymur oğlu, Kərimov Elçin Həsən oğlu, Muradov Qədir Aydın oğlu, Ağəmmədov Rüstəm Yaqub oğlu, Əzizov Bəhruz Məmmədəli oğlu, Abbasov Rahib Ələddin oğlu, Mustafayev Asəf Elməddin oğlu, Məmmədova Günəş Ələsgər qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 fevral 2023-cü il

**"Qəbələ rayonu Çuxur Qəbələ kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 04 mart 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 243

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cəbrayılov Sayəddin Salman oğlu, Cavadov Namizəd Yusif oğlu, Qaçayev Sracəddin Hümbət oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Süleymanov Rahil Qüdrət oğlu, Bəşirov Sərdar Əliağa oğlu, Qaçayev Məlik Səfər oğlu, Nəbiyev Xəzər Rəşid oğlu, Cavadov İsmət Asim oğlu, Nəbiyev Rəşid Seyid oğlu, Rəşidov Telman Qnyaz oğlu, Cavadov Asim Namizəd oğlu, Abdullayev Elnur Arif oğlu, Mustafazadə Əliikram İkram oğlu, Orucov Elvin Eldəniz oğlu, Əzəmmədov Rauf Qeys oğlu, Abdurahmanov Xavər Nəjməddin oğlu, Cəlilov Səyyar Fikrət oğlu, Rəşidov Məhəmmədiyə Vaqif oğlu, Məmmədov Qadir Paşa oğlu, Qaçayev Elmir Elmdar oğlu, Qaçayev Nəriman Elxan oğlu, Nəbiyev Elvin Rəşid oğlu, Cavadov Cavid İsmi oğlu, Qaçayev Ülfət Comərd oğlu, Süleymanov Amil Qüdrət oğlu, Cəlilov Həzi İsbəndiyar oğlu, Şirinov Cavanşir Aslanov oğlu, Abdurahmanov Zəka Fəxrəddin oğlu, Yusifov Xəyyam İldırım oğlu, Rəşidov Seymur Zaur oğlu, Cavadov İzzət Asim oğlu, Qaçayev Mahir Əhmədiyə oğlu, Kərimov Vüqar Bəkir oğlu, Şirinov Nofəl Seyfəddin oğlu, Surxayev Elnur Zabit oğlu, Şirinov Qəzənfər İsrayıl oğlu, Şirinov Faiq Nəsir oğlu, Sultanov Sənan Oktay oğlu, Bəşirov Sərxan Eynulla oğlu, Soltanov Ənvər Əkbər oğlu, Sultanov Pərviz Oktay oğlu, Qaçayev Elşən Rövşən oğlu, Rəşidov Zakir Telman oğlu, Məmmədyarov Niyaz Tehran oğlu, Qaçayeva Əfsanə Oktay qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 28 fevral 2023-cü il

**"Mingəçevir şəhəri "Zəhra" məscidi" dini icması**

Qeydiyyat tarixi: 17 may 2011-ci il
Qeydiyyat №-si: 100111A1 – 513

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əzimov Müsabir Əbdürrəhim oğlu, Lətifov Samit İbrahim oğlu, Şirinov Şahmar Musa oğlu, Nəsrullayev Vüqar Xəqani oğlu, İsmayılov Qabil Bəhman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Seyidov Qüdrət İsfəndiyar oğlu, Quliyev İskəndər Mirhəsən oğlu, Ələkbərov Anar Aydın oğlu, Nuriyev Təvəkkül Şükür oğlu, Hacıyev Rüstəm Hacıməmməd oğlu, Əhmədli Nurlan Ruslan oğlu, Yusifov Azər İsrayıl oğlu, Zamanov Namiq Sevindik oğlu, Quliyev Naqif Vaqif oğlu, İmranov Vüqar Tapdıq oğlu, İsmayılov Zaur Akif oğlu, Həbibov Nurəddin Yaşar oğlu, Hacıyev Bahadur Musa oğlu, Əhmədov Azad Şubay oğlu, Məcidli Mehralı Cahangir oğlu, Yusibov Amil Hafiz oğlu, Mikayılov Sahib Vidadi oğlu, Məmmədov Elnur Teymur oğlu, İbrahimli Ramil Ramiz oğlu, Əhmədov Teymur Cəfər oğlu, Quliyev Elbrus Alı oğlu, Muradov Vahid Cəlal oğlu, Mustafayev Aydın İsrafil oğlu, Məmmədov Eyvaz Məmməd oğlu, Xamməmmədov Orxan Adil oğlu, Əhmədov Elbrus Əlövsət oğlu, İsmayılov Zaur Yusub oğlu, Hacıyev Hacı Nüsrət oğlu, Cavadov Murad Əmiraslan oğlu, Bayramov Şahin Şakir oğlu, Nəsibov Ülvi Akif oğlu, Ədilov Əlvan Məhəmməd oğlu, Əliyev Firuddin Əhməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Lətifov Samit İbrahim oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Əliyev Əkbər Ələsgər oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdır.

Dəyişikliklərin qeydiyyat tarixi: 01 mart 2023-cü il

**"Biləsuvar rayonu Bəydili kəndi "Cümə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 26 may 2010-cu il
Qeydiyyat №-si: 100110A3 –382

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əhmədov İzzət Sərxoş oğlu, Həsənov Fətəli Seyidhəsən oğlu, Həsənov Bayraməli Seidhəsən oğlu, Fərəcov Akif Ələsgər oğlu, Həsənov Adıbala Nəcəfqulu oğlu, Zəkiyev Mirtaha Mirsahib oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Mirzəyev Kamal Həsən oğlu, Xanışov Əli Əbil oğlu, Bağırov Ramiz Məhərrəm oğlu, Əzizov Failxan Tehranxan oğlu, Ağayev Mübariz Yaqub oğlu, Gözəlov Nazim Məhəmməd oğlu, Xankişiyev Anar Mirələm oğlu, Rəhmətov Əli Abdulla oğlu, Rüstəmov Fərhad Söhrab oğlu, Kərimov Akif Qulam oğlu, Ağayev Nurlan Sərxan oğlu, Həsənov Elşad Baba oğlu, Abasov Mühəddin İmanxan oğlu, Mənsimov Vəlixan Abdulla oğlu, Həşimov Asif Gülverdi oğlu, Mikayılov Natiq İkram oğlu, Abdullayev Namiq Xeyrulla oğlu, Quliyev Cəlal Məmmədqulu oğlu, Abasov İmanxan Balaş oğlu, Gözəlov Samir Musaxan oğlu, Hüseynov Əkrəm Zakir oğlu, Bayramov Mərdan Rafik oğlu, Bayramov Samir Rafiq oğlu, Qasımov Əlfağa Nurpaşa oğlu, Abdullayev Həsən Əvəz oğlu, Mirzəzadə Zahid Rafiq oğlu, Əmrəliyev Yunus Qılıncxan oğlu, Əliyev Asif Qılınc oğlu, Dadaşov İlqar Səməd oğlu, Əliyev Ruhəddin Hacıbaba oğlu, Bağırov Qəhrəman Telman oğlu, Qarayev Mehbulla Səyyad oğlu, Qarazadə Səyyad Mehbulla oğlu, Abdullayev Vüsal Xeyrulla oğlu, Zəkiyev Mirsahib Mirtağı oğlu, Kərimli Hüseynəli Abasət oğlu, Məmmədov Elxan Xanağa oğlu, Mənsimli Yusif Rəşad oğlu, Mirzəyev Şükür Sarıbala oğlu, Əliyev Arif Kamil oğlu, Mirzəyev Kamil Müslüm oğlu, Zəkiyev Miradəm Mirtağı oğlu, Məmmədov Ruslan Zöhrab oğlu, Zəki Mirsutun Mirzəkulla oğlu, Səfərov Ruslan Səfərağa oğlu, Süleymanov Nemət Əliş oğlu, Adışov Teymur Balabəy oğlu, Kərimov Abasət Soltan oğlu, Fərəcov Anar Əvəz oğlu, Səfərov Hüsaməddin Soltan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 09 mart 2023-cü il

**"Sabirabad rayonu Qaratəpə kəndi "İmam Hüseyn" məscidi" dini icması**

Qeydiyyat tarixi: 09 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 207

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əhədov Fəxrəddin Soltan oğlu, Ağayev Əjdər Südü oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Musayev Niyaməddin Mədət oğlu, Hüseynov Məzahir Abulhüseyn oğlu, İsmayılov Ceyhun Ələsgər oğlu, Hüseynov Mehman Dursun oğlu, Musayev Hafis Həsən oğlu, Şükürov Amid Yusif oğlu, Ələkbərzadə Ağahüseyn Faiq oğlu, Rəsulov Rəfi Əlimusa oğlu, Məmmədov Vadim Vaqif oğlu, Şükürov Əlabba Ağabba oğlu, Hüseynov Fədail Ələhməd oğlu, Məlikov Adəm Tofiq oğlu, Abdullayev Emil Hakim oğlu, Bayramov Salman Adgözəl oğlu, Məmmədov Fəxri İxtiyar oğlu, Abdullayev Zaur Əlcabbar oğlu, Adışov Zahid Vahid oğlu, Hüseynov Ələhməd Abdulhüseyn oğlu, Əhədov Əhəd Fəxrəddin oğlu, Cəfərov Ramin Mahir oğlu, Cahangirov Anar Ağaməmməd oğlu, Əhmədov Eldəniz Əkrəm oğlu, Həsənov Nadir Əbilhəsən oğlu, Cahangirov Ramil Ağaməd oğlu, Abdullayev Radim Adəm oğlu, Kərimov Füzuli Nağı oğlu, Şükürov Əhliman Nadir oğlu, Məlikov Elxan Tofiq oğlu, Əsgərov İmamverdi Cəlil oğlu, Hüseynov İsmayıl Vəli oğlu, İsgəndərov Seyran İsbəndiyar oğlu, Məmmədov Yaqub İbadulla oğlu, Həsənov Nahid Vüqar oğlu, Adışov Rövşən Vahid oğlu, Hüseynov Elmar Məzahir oğlu, Cahangirov İbrahim Ağaməd oğlu, Şirinov Ceyhun Abasağa oğlu, Cahangirov Tərlan Yavər oğlu, Əhmədov Rauf Raqif oğlu, Kərimov İlham Nağı oğlu, Əhmədov Xəyal Müşviq oğlu, Bağırzadə Mirmətləb Mirislam oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 15 mart 2023-cü il

**"Zaqatala rayonu Göyəm kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 17 iyul 2014-cü il
Qeydiyyat №-si: 100114A1 – 570

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev Şaban Cücüy oğlu, Məmmədov Məmməd Mahmud oğlu, Qudiyev İsrafil Məmməd oğlu, Çobanov Nurəddin Şaban oğlu, Çobanov İbrahim Hedda oğlu, Çobanov Ömər Zihilov oğlu, Qandaxov İbrahim Şaban oğlu, Rüstəmov Fərman Əsəbəli oğlu, Ramazanov Ramazan İbrahim oğlu, Laçınov Həbibullah Mollamohuma oğlu, Boroyev Faiq Muhuma oğlu, Əliyev İslam Mohuma oğlu, Ramazanov Məmməd Nurəddin oğlu, Məmmədov Vasif Rüstəm oğlu, Əliyev İzədullah Ramazan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Qədirov Yusif Qasım oğlu, Qədirov Əli Şaban oğlu, Şabanov Hikmət Murtuzəli oğlu, Qədirov Orxan Nazim oğlu, Abakərov Aqil İbrahim oğlu, Rüstəmov Fərhad Əsəbəli oğlu, Rüstəmov Fikrət Məmməd oğlu, Xalitov İlham Şaban oğlu, Abdullayev Elşad Tinov oğlu, Şeyixov Ramin Kamil oğlu, Kamahov İsmayıl Dada oğlu, Əliyev Şamil Şaban oğlu, Bayramov Vahid Cəmaləddin oğlu, Abdulcəlilov Xeyrulla Əsəbəli oğlu, Boroyev Xəyal Muhuma oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 16 mart 2023-cü il

**"Şəki şəhər mərkəzi "Cümə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 07 may 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 344

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Salamov Zakir Müzəffər oğlu, Məmmədov Vüqar Kamal oğlu, Xəlilov Habil Camal oğlu, Səmədzadə Tərlan Həsənbala oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Dəyişikliklərin qeydiyyat tarixi: 16 mart 2023-cü il

# CƏMİYYƏT və DİN

№ 03 (377) MART 2023-cü il


## İRAQIN KƏRKÜK BÖLGƏSİNDƏ RƏSMİ YAZIŞMALAR TÜRK DİLİNDƏ APARILACAQ

İraqın Kərkük bölgəsində rəsmi yazışmaların türk dilində həyata keçirilməsi haqqında qərar qəbul edilib.

Bu barədə Baş nazir Məhəmməd Şiiə Əl-Sudani sərəncam verib. O bildirib ki, Kərkükdə türkcənin məhdudlaşdırılması qərarını ləğv edib və Kərkükün inzibati sərhədləri daxilində dövlət yazışmalarında türkcənin rəsmi dil kimi istifadə edilməsinə dair qərar qəbul olunub.

Kərkük İraq Ərəb Respublikasının inzibati bölgəsidir. 2021-ci ilin məlumatına görə, burada 1 milyon 382 min əhali yaşayır. Əhalinin 60 faizdən çoxu İraq türkmanlarından ibarətdir. Kərkük mühafazasının inzibati mərkəzi Kərkük şəhəridir. İraqın qədim və yerli xalqı olan kərküklər tarixin müxtəlif dövrlərində assimilyasiyaya məruz qalmalarına baxmayaraq, kərküklər milli varlıqlarını qoruyub saxlaya biliblər.

## NİKOLAY KOPERNİKİN NADİR NƏŞRİ HƏRRACA ÇIXARILACAQ



Nikolay Kopernikin "Göy sferalarının fırlanmaları haqqında" əlyazmasının nadir nüsxəsinin 2,5 milyon dollara satışı planlaşdırılır. Nəşr yenidən cildlənib, titul səhifəsində ilk sahiblərin adlarını görmək mümkündür.

Kitab ilk dəfə 1543-cü ildə "De revolutionibus orbium coelestium" adı altında dərc olunub, latınca tərcümədə "Göy sferalarının fırlanmaları haqqında" mənasında başa düşülür. Bu əsər Qalileo Qaliley kimi gələcək tədqiqatçılara yol göstərib və astronomiyanın təkmilləşdirilməsinə kömək edib.

Günəş sisteminin alim tərəfindən yaradılan heliosentrizm modeli (Günəşi ətrafında hərəkət edən planetlərin mərkəzi hesab edən nəzəriyyə) Yerin hər şeyin mərkəzində yerləşdiyini təsdiqləyən katolik kilsənin doktrinası ilə ziddiyyət təşkil edirdi.

Dünyada Kopernikin əsərinin çap olunmuş 500 nüsxəsindən 277-si barədə məlumat var. Onların əksəriyyəti muzey, kitabxana və digər müəssisələrə məxsusdur. Yalnız bir neçə nüsxə şəxsi mülkiyyətdədir və onların satışına olduqca az hallarda rast gəlinir. Məsələn, 2008-ci ildə analoji nüsxə 2,2 milyon dollara satılıb.

Satışın təşkilatçıları təsdiqləyir ki, kitabın bu nüsxəsi unikal vəziyyətdədir. "Belə vəziyyətdə nüsxə tapmaq çox çətindir. Bu, tamamilə ideal surətdir", - deyə "Sophia Rare Books" şirkətinin banisi Kristian Vesterqaard bildirib. Bu şirkət nadir kitabların satışı ilə məşğuldur. Kopernikin əsərinə gəlincə, bu nüsxənin yeganə "çatışmazlığı" cildinin XVIII əsrdə gözəyarı dəyişdirilməsi hesab oluna bilər. Əlyazmada, həmçinin bir neçə annotasiya, o cümlədən titul səhifəsində cızma-qara yazılmış "Brugiere" və "Jacobi Du Roure" iki ad da var. Bu adları yalnız ultrabənövşəyi işıq altında görmək mümkündür.

## AVROPANIN ƏN TƏHLÜKƏLİ ŞƏHƏRLƏRİNİN ADLARI AÇIQLANIB

"Numbeo" qlobal məlumat bazasının versiyasına görə, Böyük Britaniyanın Preston şəhəri Avropanın ən təhlükəli şəhəridir. Preston sakinlərini son üç ildə artan cinayətkarlıq səviyyəsi və gənclər arasında narkotik vasitələrdən istifadə hallarının çoxalması narahat edir.

Avropanın ən təhlükəli şəhərləri reytinqində ikinci və üçüncü yerlərdə müvafiq olaraq Böyük Britaniyanın Bredford və Fransanın Marsel şəhərləri qərarlaşıb.

156 şəhərin daxil olduğu siyahının ilk onluğunda, həmçinin Koventri (Böyük Britaniya), Kataniya (İtaliya), Şarlerua (Belçika), Birminhem (Böyük Britaniya), Nant (Fransa), Neapol (İtaliya) və Monpelye (Fransa) şəhərləri yer alıb.

Reytinqin sonuncu pilləsindəki Bern (İsveçrə) Avropanın ən təhlükəsiz şəhər statusunu qazanıb.

### Yadigar söz

*Ziqmund Freyd*

*Bu gözəl həyat təkcə bizim deyil. Bu həqiqəti anlayıb başqalarına ziyan vermədən yaşamağı öyrənməliyik.*


Ya əliyyu ya əzim, ya ğafuru ya rəhim, əntər-rəbbul-əzim, əlləzi ləysə kəmislihi şəy və huvəs-səmiul-bəsir, və haza şəhrun əzzəmtəhu və kərrəmtəhu və şərrəftəhu və fəzzəltəhu ələş-şuhur, və huvəş-şəhrul-ləzi fərəztə siyaməhu ələyyə və huvə şəhru ramazan əlləzi ənzəltə fihil-quran, hudəl-linnasi və bəyyinatin minəl-huda vəl-furqan, və cəəltə fihi ləylətəl-qədr, və cəəltəha xəyrən min əlfi şəhr, fəya-zəl mənni və la yumənnu ələykə munnə ələyyə bifəkaki rəqəbəti minən-nar, fi mən təmunnu ələyhi və ədxilnil-cənnəh, birəhmətikə ya ərhəmər-rahimin.

**Bismillahir Rəhmanir Rəhim**

Allahummə ləkə sumtu və bikə aməntu və əleykə təvəkkəltu və əla rizqikə əftərtu və saumə-ğədi min şəhri Ramazanə nəvəytu, fəğfirli ma qəddəmtu və ma əxxərtu.

Allahummə ədxil əla əhlil-quburis-surur, Allahummə əğni kullə fəqir, Allahummə əşb'i kullə ca'i, Allahumməksu kullə uryan, Allahumməqzi dəynə kulli mədin, Allahummə fərric ən kulli məkrub, Allahummə ruddə kullə ğərib, Allahummə fukkə kullə əsir, Allahummə əslih kullə fasidin min umuril-muslimin, Allahumməşfi kullə məriz, Allahummə suddə fəqrəna biğinak, Allahummə ğəyyir suə halina bihusni halik, Allahumməqzi ənnəd-dəynə və əğnina minəl-fəqr, innəkə əla kulli şəyin qədir.

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ



2023 - 1444

RAMAZAN AYININ TƏQVİMİ

Bakı

| Həftənin günləri | Hicri ayı | Miladi ayı | İmsak vaxtı | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Gün batır | Məğrib azanı | İşa azanı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cümə axş. | 01 Ramazan | 23 Mart | 05:14 | 05:19 | 06:40 | 12:47 | 17:07 | 18:55 | 19:09 | 20:11 |
| Cümə | 02 Ramazan | 24 Mart | 05:13 | 05:18 | 06:38 | 12:47 | 17:08 | 18:56 | 19:10 | 20:12 |
| Şənbə | 03 Ramazan | 25 Mart | 05:11 | 05:16 | 06:37 | 12:47 | 17:09 | 18:57 | 19:11 | 20:13 |
| Bazar | 04 Ramazan | 26 Mart | 05:09 | 05:14 | 06:35 | 12:47 | 17:09 | 18:58 | 19:12 | 20:14 |
| Bazar ertəsi | 05 Ramazan | 27 Mart | 05:07 | 05:12 | 06:33 | 12:46 | 17:10 | 18:59 | 19:13 | 20:15 |
| Çərşənbə axş. | 06 Ramazan | 28 Mart | 05:05 | 05:10 | 06:32 | 12:46 | 17:11 | 19:00 | 19:14 | 20:16 |
| Çərşənbə | 07 Ramazan | 29 Mart | 05:04 | 05:09 | 06:30 | 12:46 | 17:11 | 19:01 | 19:15 | 20:18 |
| Cümə axş. | 08 Ramazan | 30 Mart | 05:02 | 05:07 | 06:29 | 12:45 | 17:12 | 19:02 | 19:17 | 20:19 |
| Cümə | 09 Ramazan | 31 Mart | 05:00 | 05:05 | 06:27 | 12:45 | 17:13 | 19:03 | 19:18 | 20:20 |
| Şənbə | 10 Ramazan | 01 Aprel | 04:58 | 05:03 | 06:25 | 12:45 | 17:14 | 19:04 | 19:19 | 20:21 |
| Bazar | 11 Ramazan | 02 Aprel | 04:56 | 05:01 | 06:24 | 12:44 | 17:14 | 19:05 | 19:20 | 20:22 |
| Bazar ertəsi | 12 Ramazan | 03 Aprel | 04:55 | 05:00 | 06:22 | 12:44 | 17:15 | 19:07 | 19:21 | 20:24 |
| Çərşənbə axş. | 13 Ramazan | 04 Aprel | 04:53 | 04:58 | 06:20 | 12:44 | 17:16 | 19:08 | 19:22 | 20:25 |
| Çərşənbə | 14 Ramazan | 05 Aprel | 04:51 | 04:56 | 06:19 | 12:44 | 17:16 | 19:09 | 19:23 | 20:26 |
| Cümə axş. | 15 Ramazan | 06 Aprel | 04:49 | 04:54 | 06:17 | 12:43 | 17:17 | 19:10 | 19:24 | 20:27 |
| Cümə | 16 Ramazan | 07 Aprel | 04:47 | 04:52 | 06:16 | 12:43 | 17:18 | 19:11 | 19:25 | 20:28 |
| Şənbə | 17 Ramazan | 08 Aprel | 04:46 | 04:51 | 06:14 | 12:43 | 17:18 | 19:12 | 19:26 | 20:30 |
| Bazar | 18 Ramazan | 09 Aprel | 04:44 | 04:49 | 06:12 | 12:42 | 17:19 | 19:13 | 19:27 | 20:31 |
| Bazar ertəsi | 19 Ramazan | 10 Aprel | 04:42 | 04:47 | 06:11 | 12:42 | 17:20 | 19:14 | 19:28 | 20:32 |
| Çərşənbə axş. | 20 Ramazan | 11 Aprel | 04:40 | 04:45 | 06:09 | 12:42 | 17:20 | 19:15 | 19:29 | 20:33 |
| Çərşənbə | 21 Ramazan | 12 Aprel | 04:38 | 04:43 | 06:08 | 12:42 | 17:21 | 19:16 | 19:30 | 20:35 |
| Cümə axş. | 22 Ramazan | 13 Aprel | 04:36 | 04:41 | 06:06 | 12:41 | 17:22 | 19:17 | 19:31 | 20:36 |
| Cümə | 23 Ramazan | 14 Aprel | 04:35 | 04:40 | 06:05 | 12:41 | 17:22 | 19:18 | 19:32 | 20:37 |
| Şənbə | 24 Ramazan | 15 Aprel | 04:33 | 04:38 | 06:03 | 12:41 | 17:23 | 19:19 | 19:33 | 20:39 |
| Bazar | 25 Ramazan | 16 Aprel | 04:31 | 04:36 | 06:02 | 12:41 | 17:23 | 19:20 | 19:34 | 20:40 |
| Bazar ertəsi | 26 Ramazan | 17 Aprel | 04:29 | 04:34 | 06:00 | 12:40 | 17:24 | 19:21 | 19:36 | 20:41 |
| Çərşənbə axş. | 27 Ramazan | 18 Aprel | 04:27 | 04:32 | 05:59 | 12:40 | 17:25 | 19:22 | 19:37 | 20:42 |
| Çərşənbə | 28 Ramazan | 19 Aprel | 04:26 | 04:31 | 05:57 | 12:40 | 17:25 | 19:23 | 19:38 | 20:44 |
| Cümə axş. | 29 Ramazan | 20 Aprel | 04:24 | 04:29 | 05:56 | 12:40 | 17:26 | 19:24 | 19:39 | 20:45 |

**Şəvval ayının 1-i (21 Aprel) Fitr (Ramazan) bayramıdır.**

**RAMAZAN AYININ GÜNDƏLİK DUALARI**

**Oruc niyyəti: Ramazan ayının orucunu tuturam qürbətən iləllah.**

**İftardan qabaq oxunan dua:** İlahi, Sənin üçün oruc tutdum. Verdiyin ruzi ilə iftarımı açıram və Sənə təvəkkül edirəm. Orucumu qəbul et. Həqiqətən, Sən duaları eşidən və hər şeyi bilənsən. Ey geniş məğfirət Sahibi, günahlarımı bağışla!

**1-ci gün** İlahi, mənim orucumu oruc tutanların orucundan, namazımı gecə-gündüz namaz qılanların namazından hesab et, məni qəflət yuxusundan oyat, bu ayda günahımı bağışla, ey Aləmlərin Rəbbi, məni əfv et, ey günahkarları əfv edən Allah!

**2-ci gün** İlahi, məni bu ayda Öz rizana yaxınlaşdır, qəzəbindən və cəzalarından uzaq et. Ey Rəhimlilərin Rəhimlisi, məni bu ayda Öz ayələrini oxumağa müvəffəq et!

**3-cü gün** İlahi, bu ayda mənə güclü ağıl və ayıq-sayıqlıq ver, pis şeylərdən və qafillikdən uzaq et. Ey Səxavətlilərin Səxavətlisi, Öz səxavətin xatirinə bu ayda nazil etdiyin hər xeyirdən mənim də nəsibimi ver!

**4-cü gün** İlahi, bu ayda mənə Sənin (oruc tutmaq barədə) əmrini yerinə yetirməyə qüvvət ver, Səni zikr etməyin şirinliyini mənə daddır, səxavətinə görə Sənə şükr etməyə məni ruhlandır, məni bu ayda Özün hifz et və qoru, ey bəsirətlə nəzər edən Allah!

**5-ci gün** İlahi, bu ayda məni günahlarının bağışlanmasını istəyənlərdən qərar ver, Öz saleh və itaətkar bəndələrindən, Özünə yaxınlaşdırdığın dostlarından et, mehribanlığın xatirinə, ey mərhəmətlilərin Mərhəmətlisi!

**6-cı gün** İlahi, bu ayda məni Sənə asiliyə məruz qoymaqla rüsvay etmə, Öz cəza qamçınla məni vurma, Öz lütfün və köməyin sayəsində Sənin qəzəbini doğuracaq şeylərdən bu ayda məni uzaq et, ey rəğbət bəsləyənlərin Rəğbətlisi!

**7-ci gün** İlahi, bu ayın orucunu tutmaqda və namazını qılmaqda mənə kömək ol, məni səhvlərdən və günahlardan uzaqlaşdır. Bütün bu ayı Səni zikr etməyi mənə qismət et, Öz köməyin sayəsində, ey azmışları doğru yola çıxaran Allah!

**8-ci gün** İlahi, bu ayda mənə yetimlərə münasibətdə mərhəmətli olmağı, çörək verməyi, sülhpərvər olmağı, hörmətli adamlarla oturub-durmağı qismət elə, Öz qüdrətin sayəsində, ey ümid edənlərin Pənahı!

**9-cu gün** İlahi, bu ayda mənə Öz geniş mərhəmətindən pay ver, Öz açıq-aşkar dəlil-sübutlarınla yol göstər, Səni razı salacaq bütün şeylərə doğru məni apar, Öz məhəbbətin xatirinə, ey arzusu olanların Pənahı!

**10-cu gün** İlahi, bu ayda məni Öz həsənatlarının sayəsində Sənə təvəkkül edənlərdən, Sənin yanında bu ayda uğur qazananlardan və Özünə yaxınlardan qərar ver, Öz yaxşılığınla ey istək sahiblərinin son Qayəsi!

**11-ci gün** İlahi, bu ayda mənə Öz köməyin sayəsində yaxşılıq etməyi sevdir, məndə bu ayda pisliyə və asiliyə ikrah doğur, qəzəbini və Cəhənnəm odunu məndən uzaq et, ey xilas olmaq istəyənlərin Xilaskarı!

**12-ci gün** İlahi, bu ayda məni həya və iffətlə zinətləndir, itaət və razılıq libasını geyindir. Bu ayda məni ədalət və insaf yolu ilə apar, qorxduğum hər şeydən məni hifz et. Səni Öz ismətinə and verirəm ey (ürəklərində) Allah qorxusu olanların Himayədarı!

**13-cü gün** İlahi, bu ayda məni natəmizlik və iyrənc şeylərdən pak et, alın yazısı ilə məni bu ayda olacaqlara səbirli et, və Öz köməyinlə məni bu ayda təqvaya və əməlisaleh insanlarla dostluğa müvəffəq et, ey miskinlərin gözlərinin işığı Allah!

**14-cü gün** İlahi, bu ayda səhvlərimi mənə irad tutma, məni səhvlərdən və büdrəmələrdən qoru, bəla və dərdlərə düçar etmə, and verirəm izzətinə ey müsəlmanların İzzəti, Şərəfi olan Allah!

**15-ci gün** İlahi, mənə bu ayda təqvalı olanların itaətini bəxş et, qəlbimi bu ayda itaət edənlərə məxsus tövbə üçün geniş aç. Sən özün aman ver, ey ürəklərində Allah qorxusu olanların ümidgahı!

**16-cı gün** İlahi, bu ayda məni əməlisaleh adamlarla rastlaşmağa müvəffəq et, və məni şər adamlarla rastlaşmaqdan uzaq et, Öz rəhmətinlə mənə bu ayın xatirinə axirətdə qərar evində sığınacaq ver, Allahlığın xatirinə ey aləmlərin Rəbbi!

**17-ci gün** İlahi, mənə bu ayda saleh əməllərə doğru yol göstər, ehtiyac və amallarımı yerinə yetir, ey etdikləri barədə izaha və suala ehtiyacı olmayan, ey aləmlərin batinində olanları bilən! Mühəmmədə (s) və onun pak ailəsinə salavat və rəhmət bəxş et!

**18-ci gün** İlahi, məni bu ayda Öz səhərlərinin bərəkəti üçün oyat, qəlbimi Öz işıqlarının ziyası ilə nurlandır, bütün əzalarımı o nurun ziyasında sabit qıl. Səni öz nuruna and verirəm, ey ariflərin qəlblərini işıqlandıran Allah!

**19-cu gün** İlahi, bu ayın bərəkətindən nəsibimi bol et, mənim yolumu xeyir-bərəkətlərinə doğru asanlaşdır, və məni Öz yaxşılıqlarını qəbul etməkdən məhrum etmə, ey açıq-aşkar haqqa hidayət edən Allah!

**20-cu gün** İlahi, bu ayda mənim üçün Cənnət qapılarını aç, Cəhənnəm qapılarını bağla, məni bu ayda Quran oxumağa müvəffəq et, ey möminlərin qəlblərinə rahatlıq salan Allah!

**21-ci gün** İlahi, bu ayda Sənin rizanı qazanmaq üçün mənə yol göstər, Şeytanın məni azdırması üçün yol qoyma, Cənnəti mənim üçün mənzil və dinclik yeri qərar ver, ey möhtac olanların ehtiyaclarını ödəyən Allah!

**22-ci gün** İlahi, bu ayda fəzilət qapılarını üzümə aç, mənə Öz bərəkətlərini nazil et, məni bu ayda Sənin razılığına səbəb olacaq işlərə müvəffəq et, Öz cənnətlərinin ən gözəl guşələrində sakin et, ey ehtiyac içində olanların dualarını müstəcab edən Allah!

**23-cü gün** İlahi, bu ayda mənim günahlarımı yu (pak et), məni eyiblərdən təmizlə, qəlbimi ürəklərdəki təqva qorxusu ilə imtahana çək, ey günahkarların büdrəmələrini bağışlayan Allah!

**24-cü gün** İlahi, bu ayda Səndən Səni razı salacaq şeyləri diləyirəm, Səni incidəcək şeylərdən Sənə pənah gətirirəm. Bu ayda məni Sənə itaət etməyə, Sənə asilik etməməyə müvəffəq etməyini diləyirəm, ey diləyənlərə səxavət göstərən Allah!

**25-ci gün** İlahi, bu ayda məni Sənin dostlarını sevən, düşmənlərinə düşmən olan və Peyğəmbərlərinin sonuncusunun yolu ilə gedənlərdən qərar ver, ey Peyğəmbərlərin qəlblərini məsum qılan Allah!

**26-cı gün** İlahi, bu ayda mənim səylərimi mükafata layiq qıl, günahlarımı bağışla, əməllərimi məqbul, eyiblərimi üstü örtülmüş qərar ver, ey eşidənlərin Eşidəni!

**27-ci gün** İlahi, bu ayda mənə Qədr gecəsinin fəzilətini əta et, çətin işlərimi asanlaşdlr, üzrlərimi qəbul et, günahları və günah yükünü üstümdən götür, ey Öz saleh bəndələrinə mehriban olan Allah!

**28-ci gün** İlahi, bu ayda nafilə əməllərdən mənim nəsibimi bol et, Qiyamət günü suallarına hazır olmaq üçün mənə lütf göstər, vəsilələr arasında sənə yetişmək üçün vəsiləmi bu ayda yaxın et, ey israrlıların dualarını eşitməkdə məmnun olan Allah!

**29-cu gün** İlahi, məni bu ayda Öz rəhmətinlə əhatə et, mənə müvəffəqiyyət və ismət müyəssər et, qəlbimi töhmət zülmətlərindən pak et, ey Öz mömin bəndələrinə mehribanlıq göstərən Allah!

**30-cu gün** İlahi, Ağamız Mühəmməd və onun pak ailəsi xatirinə bu aydakı orucumu Sənin və Peyğəmbərinin razı qaldığı şəkildə qəbul et! Dinimizin e'tiqad təməllərini möhkəm qərar ver. Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur!

**QEYD**

**Ramazan ayının 10-da (1 Aprel)** - Həzrət Xədicənin (ə) vəfatı
**Ramazan ayının 15-də (6 Aprel)** - Həzrət İmam Həsənin (ə) mövludu
**Ramazan ayının 18-dən 19-a keçən gecə (9 Aprel)** - Qədr (Əhya) gecəsi
**Ramazan ayının 19-da (10 Aprel)** - Həzrət Əlinin (ə) yaralanması
**Ramazan ayının 20-dən 21-ə keçən gecə (11 Aprel)** - Qədr (Əhya) gecəsi
**Ramazan ayının 21-də (12 Aprel)** - Həzrət Əlinin (ə) vəfatı
**Ramazan ayının 22-dən 23-ə keçən gecə (13 Aprel)** - Qədr (Əhya) gecəsi
**Ramazan ayının 26-dan 27-əkeçən gecə (17Aprel)** - Qədr (Əhya) gecəsi

**PEYĞƏMBƏRİMİZİN (S) ORUCLA BAĞLI MÜBARƏK SÖZLƏRİNDƏN**

- Oruc tutun, sağlam olun.
- Uca Allah buyurur: Oruc Mənim üçündür, onun mükafatını Mən verəcəyəm.
- Oruclunun sükutu zikr, yuxusu ibadət, duası məqbul əməllərin savabı kimi qiymətləndirilir.
- Oruc səbrin yarısıdır.
- Ümmətim Ramazanın xeyrini və yüksək şərəfini bilmiş olsaydı bütün ilin Ramazan olmasını arzu edərdi.

www.qafqazislam.com



Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:** Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**

Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894